

Milli azadlıqdan şirin nemət yoxdur!

# Vaxt yetişdi...

## Mühacirətdə olan Qərbi Azərbaycan hökuməti təsis ediləcək

### İcma anons verdi

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
04 sentyabr 2024-cü il, çərşənbə
№ 160 (6746)
Qiyməti 60 qəpik



## Şimali Kiprdən təbrik zəngi

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Ersin Tatar növbədənkənar parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. O, seçkilərin azad, demokratik, sərbəst mühitdə keçdiyini və Azərbaycan xalqının iradəsini ifadə etdiyini vurğulayıb.

Ersin Tatar Azərbaycan parlamentində Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupunun yaradılmasını da vurğulayaraq yeni parlamentlə parlamentlərarası dostluq qrupu çərçivəsində əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Ölkəsinin Türk Dövlətləri Təşkilatının Şuşa Zirvə görüşünə dəvət olunmasını məmnunluqla xatırladan Ersin Tatar Şimali Kipr Türk Cümhuriyyətinin bu təşkilatla əlaqələrinin inkişafına verdiyi dəstəyə və dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Azərbaycanın bundan sonra da Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətlər Təşkilatı çərçivəsində əlaqələrinin inkişafına və əməkdaşlığının genişlənməsinə dəstək verəcəyini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Kəlbəcər sürətlə abadlaşır...



Bax səh. 2

# Qafqazın ən böyük turizm-sağlamlıq mərkəzi

Bax səh. 3

## Azərbaycan və Pakistan yeni iqtisadi hədəfləri müəyyənləşdirir



Bax səh. 3

## 16-cı beynəlxalq konfrans...

Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlamaqda davam edir. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir...

Bax səh. 4

## Minsk qrupunun ləğvi: De - faktodan de -yureyə




Bax səh. 6

## Bir gündə 2 KSES...

Kəlbəcər Ermənistanın işğalından azad edildikdən sonra böyük quruculuq meydanına çevrilməkdədir. Bölgədə nəhəng infrastruktur layihələrinin icrası sürətlə davam etdirilir. Ötən dövr ərzində Kəlbəcərdə tunel-körpü və magistral yolların inşası sürətlə aparılıb, bir çox obyektlərin istifadəyə verilməsi mümkün olub. Rayonda 7 yaşayış məntəqəsinin (İstisu qəsəbəsi, Qamışlı, Çaykənd, Nadirxanlı, Qılınclı, Otaqlı və Çıraq kəndləri), eləcə dıə 4 kəndin (Çəpli, Keşdək, Dalqılınclı və İmanbinəsi kəndləri) layihələndirilməsi işləri yekunlaşıb və kəndlərin tikintisinə dövlət büdcəsindən ayrılmış vəsaitlərin icrası təmin olunmaqdadır. Bu, Kəlbəcərin "Böyük Qayıdış" Proqramı çərçivəsində yaxın vaxtlarda öz sakinlərinə qovuşacağından xəbər verir.

Kəlbəcər həm də işğaldan azad edilmiş rayonlar içərisində zəngin hidrogen resurslarına malikdir, rayonda bərpa olunan enerji mənbələrinin istehsalı istiqamətində dayanmadan fasiləsiz layihələr icra olunmaqdadır. Hidroenerji ekoloji cəhətdən təmiz...

Bax səh. 2

## Hidayət-80: Böyük ziyalının yaradıcılıq üfüqləri

Yaradıcı insan, dəfələrlə deyilmiş fikri bir daha təkrar etsək, bütöv bir Dünyadır ki, onun zəngin tarixi, geniş coğrafiyası var. Və bu Dünya mənsub olduğu xalqın möhtəşəm Dünyasının ayrılmaz tərkib hissəsidir... Hidayətin Dünyası kimi...

Müasir Azərbaycan ziyalılığının görkəmli nümayəndələrindən olan Hidayət artıq neçə on illərdir ki, həm Azərbaycanda, həm də onun sərhədlərindən uzaqlarda böyük şair, nasir, dramaturq, publisist, tərcüməçi, ictimai xadim (və dövlət xadimi) kimi tanınır.

Uzun illər Azərbaycan təhsilinə uğurla rəhbərlik etmiş görkəmli (və milli) ictimai xadim, professor Misir Mərdanov, haqlı olaraq, yazır:

"Ziyalı xalqın düşünən beyni, mənəvi diriliyidir. Ziyalı Vətən və millət yolunda...

Bax səh. 5

## Türkiyə Konstitusiya dəyişikliyi yolunda...

Qardaş Türkiyədə  Konstitusiyanın dəyişdirilməsi məsələsi zaman-zaman gündəmə gəlir. Ancaq bu məsələ hər dəfə müxtəlif səbəblərdən ertələnir. Xatırladaq ki, hakim Ədalət və İnkişaf Partiyası hələ 2021-ci ildə ölkənin yeni Konstitusiyasının layihəsini hazırlayıb təqdim etmişdi. Lakin siyasi partiyalar arasında Əsas Qanunun - Ana Yasasının dəyişdirlməsi ilə bağlı konsensus əldə olunmadı. Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində yeni Konstitusiyanın qəbuluna mane olan əsas məqamı açıqlayıb.  Dövlət başçısı bu barədə Ali Apellyasiya Məhkəməsinin sədrliyi yanında keçirilən "2024-2025-ci Məhkəmə ilinin açılış mərasimi"ndə çıxışında danışıb. O bildirib ki, yeni Konstitusiyaya ehtiyac var. "İnanıram ki, bu prosesin öhdəsindən gələ biləcəyik. Hazırda yeni Konstitusiyanın qəbuluna mane olan əsas məsələ qərəzdir. Müxalifət bu prosesə mane olur. Türkiyə...

Bax səh. 6

## Qərbin planları işə düşür...

Rəsmi İrəvan sülh sazişi imzalamamasının tərəfdarı olduğunu bəyan etsə də, gerçəkdə bunun əksi baş verir. Çünki son zamanlar Ermənistanda revanşist çağırışlar artmaqdadır. Sentyabrın 2-də İrəvanda Qarabağdakı separatçı rejimin "ildönümü"nün qeyd edilməsi və müharibə çağırışları da bunu deməyə əsas verir. Məsələnin diqqətçəkən məqamı ondadır ki, hökumət orqanları erməni separatizmini "yad edən" və Azərbaycana qarşı müharibə çağırışları edən revanşistlər haqqında heç bir ölçü götürməyib.

Görünən odur ki, erməni separatizminin ildönümü qeyd edənlərin Qarabağı qaytarmaq, silahlanmanı gücləndirmək və digər məsələlər barədə rəsmi İrəvanın seyrçi mövqeyi həqiqətən də gizli mətləblərdən xəbər verir. Xüsusilə, hərbiləşmə siyasəti, Qərblə bu istiqamətdə sıx əməkdaşlıq Ermənistanın Azərbaycana qarşı müharibəyə hazırlaşması ehtimalını artırır...

Bax səh. 5

## Aram Bransonun terror cəhdinin arxasında kimlər dayanır?



Bax səh. 4



## Fransa baş nazir axtarışında...

### Paris hazırda diplomatiya böhranı da yaşayır

Bax səh. 7

# Kəlbəcər sürətlə abadlaşır...

Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcər 1993-cü il aprelin 3-də Ermənistanın işğalı altına düşüb. Müzəffər Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfər sayəsində bu rayon 2020-ci il noyabrın 25-də bir güllə atılmadan Azərbaycana qaytarıldı. Bu, Azərbaycanın hərb meydanında olduğu kimi, diplomatiya sahəsində də böyük uğuru idi.

İşğal altına düşən digər ərazilərimiz kimi, Kəbəcər rayonu da təxminən otuz illik işğal dövründə erməni vandalları tərəfindən dağıdılmış və talan edilmişdi. Postmüharibə dövründə isə azad Kəlbəcərin yeni dövrü başlayıb. Rayon sürətlə abadlaşır və buraya həyat qayıdır. Göz önündə yeni bir Kəlbəcər formalaşır. Bu günlərdə rayona gələn Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada bir sıra açılış və təməlqoyma tədbirlərinə qatılıblar.



## Kəlbəcərdə salınan yeni yaşayış kompleksləri



İşğal dövründə Kəlbəcərdən məcburi qaydada köç edən sakinlər respublikanın ayrı-ayrı bölgələrində uyğunlaşdırılmış tikililərdə yaşamaq məcburiyyətində qalmışdılar. Artıq ağır, məhrumiyyətlərlə dolu qaçqınlıq dövrü arxada qalıb. Rayonda yeni yaşayış komplekslərinin salınması burada intensiv şəkildə aparılan abadlıq işlərinin mühüm bir istiqamətini təşkil edir. Rayona səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış olublar. Bu yaşayış kompleksinin ümumi sahəsi 19,5 hektardır. Birinci mərhələdə buraya 201 ailə köçürüləcək. Bunun üçün kompleksdə dördmərtəbəli 6 bina tikilib. Binaların hər birində 27 mənzil mövcuddur. Mənzillərin 54-ü ikiotaqlı, 72-si üçotaqlı və 36-sı dördotaqlıdır. Kompleksdə, həmçinin "townhouse" tipli ikimərtəbəli 39 ev də inşa olunub. Bu evlərin hər biri üçotaqlıdır. İkinci mərhələdə bu kompleksə 323 ailənin köçürülməsi planlaşdırılır. Bunun üçün isə müxtəlif tipli dördmərtəbəli 16 çoxmənzilli yaşayış binası, "townhouse" tipli ikimərtəbəli 57 ev inşa olunacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılır.

Eyni zamandada, Prezident İlham Əliyev Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub. Bu kompleks 1,76 hektar ərazidə layihələndirilib. Kəlbəcər şəhərində salınacaq ikinci yaşayış kompleksi şəhərin Baş planına əsasən çoxfunksiyalı zonada yerləşir. Kompleksdə 3 və 5 mərtəbəli 8 yaşayış binasının inşası nəzərdə tutulur. Mənzillərin 56-sı ikiotaqlı, 56-sı üçotaqlı, 48-i isə dördotaqlı olacaq. Burada, ümumilikdə, 160 ailənin yaşaması planlaşdırılır.



Dövlətimizin başçısının iştirakı ilə Kəlbəcər rayonunun İstisu qəsəbəsinin də təməli qoyulub. Məlumat verildiyi kimi, İstisu qəsəbəsi Kəlbəcərin qərb hissəsində yerləşir. Ümumi sahəsi 63,1 hektar olan qəsəbənin layihələndirilmə işləri mərhələli şəkildə aparılacaq. Baş plana əsasən, gələcəkdə burada 159 fərdi ev, "townhouse" tipli 71 ev (142 mənzil) və 180 mənzildən ibarət 10 bina tikiləcək.

Birinci mərhələdə salınacaq ərazinin sahəsi 39,2 hektar təşkil edir. Bu mərhələdə 159 fərdi evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beşotaqlı fərdi evlər tikiləcək. Qəsəbəyə birinci növbədə 159 ailə köçürüləcək.

İstisu qəsəbəsində 352 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, bayraq meydanı, idman meydançası və digər zəruri obyektlər yaradılacaq.

Səfər çərçivəsində Prezident İlham Əliyev, həmçinin Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyub. İnzibati binanın inşası üçün 2,4 hektardan çox ərazi nəzərdə tutulub. Bu ərazi Kəlbəcərin ictimai mərkəzi ilə şəhər parkının arasında yerləşir. İnzibati binanın yerləşdiyi ərazinin şimal hissəsi pilləli landşaft elementləri və şəhər parkının relyefi ilə birləşir. Ümumilikdə, Baş plan üzrə şəhərin inzibati mərkəzində 2 inzibati binanın inşası nəzərdə tutulub.

## Kəlbəcər Şəhər Təhsil Kompleksində görülən işlər

Kəlbəcərin abadlaşdırılması proqramı çərçivəsində burada sosial təyinatlı infrastrukturun yaradılması da diqqət mərkəzində saxlanılır. Sentyabrın 2-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi ilə tanış olublar. Ümumi sahəsi 2,2 hektardan çox olan kompleksin ərazisində 80 yerlik uşaq bağçası, peşə emalatxanaları yaradılacaq, STEAM zona, məktəbdənkənar hazırlıq məkanı və digər zəruri obyektlər təşkil ediləcək. Kompleksin ərazisində, həmçinin 528 şagird yerlik məktəb inşa olunur.

Modul tipli məktəbin layihəsi ilə tanışlıq zamanı qeyd edilib ki, ümumi sahəsi 420 kvadratmetr olacaq binada 2 inzibati otaq və 9 sinif otağı yerləşəcək.

## Tarixi abidələrə qayğı

Rayon ərazisində yerləşən tarixi abidələrə də qayğı göstərilir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda Xudavəng monastır kompleksində olublar. Bildirildiyi kimi, dünya əhəmiyyətli memarlıq abidəsi olan Xudavəng məbədi 1992-2020-ci illərdə ermənilərin təcavüzünə məruz qalıb. İşğal dövründə erməni apostol kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına monastırda "bərpa" adı altında qanunsuz işlər görülüb. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililər üzərində saxtalaşdırma əlamətləri olan əlavələr edib, abidələrin bir çox hissələrini vandalizmə məruz qoyublar. Torpaqlarımız işğaldan azad ediləndən sonra monastırda qalan erməni keşiş və rahiblər abidələrdəki qədim freskaları xarici mütəxəssislərin iştirakı ilə xüsusi üsulla kəsib götürüb, qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisindən çıxarıblar.

Xudavəng monastır kompleksinin zəng qülləsində yanaşı qoyulmuş bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompozisiyalı xaçdaşlar və kitabələr də işğal dövründə sökülərək talan edilib.

*Mübariz ABDULLAYEV*

# Bir gündə 2 KSES...

## Kəlbəcər "yaşıl enerji"nin cəlbedici bölgəsinə çevrilir

Kəlbəcər Ermənistanın işğalından azad edildikdən sonra böyük quruculuq meydanına çevrilməkdədir. Bölgədə nəhəng infrastruktur layihələrinin icrası sürətlə davam etdirilir. Ötən dövr ərzində Kəlbəcərdə tunel-körpü və magistral yolların inşası sürətlə aparılıb, bir çox obyektlərin istifadəyə verilməsi mümkün olub. Rayonda 7 yaşayış məntəqəsinin (İstisu qəsəbəsi, Qamışlı, Çaykənd, Nadirxanlı, Qılınclı, Otaqlı və Çıraq kəndləri), eləcə də 4 kəndin (Çəpli, Keşdək, Dalqılınclı və İmanbinəsi kəndləri) layihələndirilməsi işləri yekunlaşıb və kəndlərin tikintisinə dövlət büdcəsindən ayrılmış vəsaitlərin icrası təmin olunmaqdadır. Bu, Kəlbəcərin "Böyük Qayıdış" Proqramı çərçivəsində yaxın vaxtlarda öz sakinlərinə qovuşacağından xəbər verir.

Kəlbəcər həm də işğaldan azad edilmiş rayonlar içərisində zəngin hidrogen resurslarına malikdir, rayonda bərpa olunan enerji mənbələrinin istehsalı istiqamətində dayanmadan fasiləsiz layihələr icra olunmaqdadır. Hidroenerji ekoloji cəhətdən təmiz enerji mənbəyi olmaqla, dünyada ən geniş istifadə olunan bərpa olunan enerji mənbəyidir. Hidroenerji çayın və ya digər su hövzəsində yaradılan bəndlərdən və ya axar sudan alınan elektrik enerjisidir. Bu, bərpa olunan enerji mənbəyi davamlı olaraq dövriyyədə olan su axını sayəsində daim istehsalın dövriliyini təmin edir. Bərpa olunan enerji mənbələri içərisində dünyada ən böyük istehsal gücünə malik stansiyalar su elektrik stansiyalarıdır.

## Rəqəmsallaşmış enerji gücləri...

İndiyə qədər "AzərEnerji" Kəlbəcərdə 6 yerdə kiçik su elektrik stansiyası (KSES) yenidən quraraq istismara verib. Belə ki, 2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1" istismara verilib ki, Lev çayı üzərində inşa olunan bu stansiya "Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edir və Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Bundan başqa, 2023-cü ildə istifadəyə verilmiş 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" KSES-ləri də tam rəqəmsallaşmış enerji gücləridir.




Sentyabrın 2-də Prezident İlham Əliyevin Kəlbəcərdə "Zar" KSES-in açılışını etməsi ilə Kəlbəcərin hidroenerji gücü daha da artmış oldu. Belə ki, 4,3 MVt gücündə olan "Zar" Kiçik Su Elektrik Stansiyasının Kiçik Qafqaz dağ silsiləsindəki bulaqlar, ərinti suları da daxil olmaqla mənbəyi Azərbaycan ərazisində formalaşan çaylar üzərində "yaşıl enerji" istehsalının bir hissəsinə çevriləcək. Eləcə də, dövlət başçısının açılışını etdiyi Göygöl rayonundakı 4,1 meqavat gücündə "Toğanalı" KSES - də bu bölgənin hidroenerji sisteminin tərkib hissəsi olacaq.

Qeyd edək ki, ekoloji təmiz enerji istehsalının əsas mənbələrindən biri olan hər iki KSES-in qurulmasında Zar və Kürəkçay çaylarının üzərində ekoloji normalar daxilində baş suqəbuledici qurğular inşa edilib. Bu məqsədlə çaylarda yaşayan canlıların, ümumilikdə, flora və faunanın qorunmasını təmin etmək üçün xüsusi hidrotexniki qurğular tikilib. Ümumilikdə, hər iki stansiya üçün çətin relyefdə 14 min metr derivasiya boruları çəkilib və çay ekosisteminin qorunmasına xüsusi önəm verilib.

## Daha 3 hidroenerji stansiyası istifadəyə veriləcək...

Bir gündə iki kiçik su elektrik stansiyasının (KSES) açılması olduqca mühüm hadisədir və azad edilmiş ərazilərdə hidroenerji ehtiyatlarının dayanmadan sürətlə istehsala cəlb edilməsinin göstəricisidir. "Zar" və "Toğanalı" KSES-lərdə ümumilikdə 25 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur ki, bu da 5,5 milyon kubmetr təbii qaza qənaət edilməsi, 10 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir. Bu, ölkəmizin enerji sistemində "yaşıl enerji"nin payının daha da artmasına səbəb olacaq.

Qarabağ və Şərqi Zəngəzur bölgələrinin ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı regionlara çevrilməsi, "yaşıl enerji" istehsalının tam şəkildə təmin edilməsi Azərbaycanın regional enerji müstəqilliyini gücləndirəcək.

Hazırda Kəlbəcər rayonunda digər KSES-lərin tikintisi işləri də davam etdirilir. "Aşağı Vəng", "Yuxarı Vəng", "Nadirxanlı" adlı stansiyaların 2024-cü ildə istismara verilməsi planlaşdırılır. Nəticədə bu bölgədəki bütün enerji güclərinin istismarı sayəsində 2024-cü ildə Kəlbəcər rayonunda 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat/saata çatacağı gözlənilir.

Kəlbəcər rayonu termal sularla da kifayət qədər zəngindir. Bölgədə hidroenerji, termal suların, çay sularının mənbələrinə görə, ölkə üzrə rersursların ən azı 30 faizinə malikdir. Eyni zamanda, Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 1000 MVt-dan çox texniki potensialının olduğu proqnozlaşdırılır. Hazırda həmin rayonların ərazisində 100 MVt gücündə tikintisi planlaşdırılan külək elektrik stansiyası layihəsi reallaşmaqdadır, digər stansiyaların tikintisi üzrə qiymətləndirmələr davam edir. Proqnozlara görə, Kəlbəcər rayonu ümumi gücü 180 MVt olan "yaşıl enerji"yə malikdir: Bu, ölkəmizdə bərpa olunan enerji mənbəyi kimi kiçik su elektrik stansiyalarının əsas ünvanlarından biri olan Kəlbəcərin strateji əhəmiyyətinin göstəricisi olmaqla rayona "yaşıl investisiyaların" nə qədər cəlbedici olmasını əsaslandırır.

## Kəlbəcərdə "yaşıl iqtisadiyyat" quruculuğuna da start verilib...

Bütün bunlar rayonun potensial güc mənbəyi kimi "yaşıl enerji" zonasının əsas mərkəzlərindən birinə çevriləcəyini şərtləndirir. Hazırda Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi işğaldan azad olunmuş ərazilərdə "Yaşıl iqtisadiyyat" quruculuğunda iştirak edir. İtaliya, Cənubi Koreya, Türkiyənin şirkətləri ilə də bərpa olunan enerji gücləri üzrə danışıqlar davam etdirilir. Türkiyə şirkətləri Kəlbəcər rayonlarında bərpa olunan enerji layihələrinin iqtisadi əsaslandırma planını hazırlayıb və külək elektrik stansiyalarının inşası başlanacaq.

Beləliklə, azad edilmiş ərazilərin sırasında öz zəngin iqtisadi potensialı olan böyük bir coğrafi ərazi olan Kəlbəcər yaxın illərdə "yaşıl enerji" hubu formalaşdırmaqla 2026-2027-ci illərdə bərpa olunan enerjinin və hidrogenin Avropaya nəqlində mümühm yer tutacaq.

Yeüri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyası istismara verilib və bu günədək 492 milyon kilovat-saat sıfır emissiyalı elektrik enerjisi istehsal edilib. Bununla da 110 milyon kubmetr təbii qaza qənaət olunub, 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısı alınıb. Bu bölgədə KSES-lərin qoyuluş gücü 500 MVt-a, illik istehsal həcmi isə 1,5-1,8 milyard kilovat-saata çatacağı, bununla da 350-400 milyon kubmetr təbii qaza qənaət edilməsi, 650-750 min ton həcmində karbon dioksid emissiyasının azalması proqnozlaşdırılır.

*E.CƏFƏRLİ*

# Qafqazın ən böyük turizm-sağlamlıq mərkəzi

## “İstisu” Müalicə-İstirahət Kompleksi qapılarını dünya ölkələrinə açmağa hazırlaşır

Kəlbəcər rayonunda sürətlə inşası davam etdirilən “İstisu” Müalicə-İstirahət Kompleksində aparılan tikinti işlərinin böyük bir qismi yekunlaşır və yaxın vaxtlarda bu nəhəng sanatoriyanın istifadəyə verilməsi Azərbaycanın iqtisadi həyatında mühüm əhəmiyyət daşıyacaq. Vaxtilə ittifaq əhəmiyyətli ikinci böyük kurort hesab edilən “İstisu” il ərzində 50 min nəfəri qəbul etmək imkanına malik olub. Ən müasir üslubda və dünya turizm standartları nəzərə alınmaqla inşa edilən “İstisu” Müalicə-İstirahət Kompleksi əvvəlindən daha böyük və cəlbedici müəssisə kimi region və dünya ölkələrinin diqqətini daha çox cəlb edəcək. Ümumi sahəsi 32 min kvadratmetr nəzərdə tutulan kompleksdə 145 nömrə, eləcə də 10 kottecin yaradılması, termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu ilə yanaşı, müxtəlif iaşə obyektlərinin salınması müştərilərin axınını stimullaşdıracaq.

Bu kompleksin suyu dünyada ən nadir və keyfiyyətli mənbələrdən biri hesab edilir. “Aşağı İstisu” mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, “İstisu” təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu baxımdan, “İstisu”nu beynəlxalq əhəmiyyətli sağlamlıq mərkəzinə çevirməklə, xarici qonaqları buraya cəlb etmək mümkün olacaq. “İstisu” Müalicə-İstirahət Kompleksi regionun sağlamlıq turizminin əsas mərkəzi olmaqla, eyni zamanda, ekoturizmin və dağ turizminin potensiallarının artmasına da yol açacaq.

## Dünyada yeni Azərbaycan brendi - “İstisu” mineral suları ...



Kəlbəcər rayonunda yeni istifadəyə verilən “İstisu” mineral su zavodunun isə Azərbaycanın mineral içkilər bazarında daha güclü və iddialı müəssisə kimi yer tutacağı şübhəsizdir. 30 illik fasilədən sonra yenidən istehlakçılara öz qapısını açan bu zavod müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə dünyada şöhrəti qazanıb.

Mənbəyini Azərbaycanın Kəlbəcər rayonunun mənzərəli dağlıq bölgəsində, dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60°C-dən yuxarı temperaturda çıxan “İstisu” mineral suyu regionun minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. İllik istehsal gücü 100 milyon şüşə butulkadan artıq nəzərdə tutulan zavodda istehsal olunan və keyfiyyəti ilə fərqlənən suyun xarici ölkələrə ixrac edilməklə yeni Azərbaycan brendinə çevriləcəyi şübhə doğurmur.



Yeri gəlmişkən, İstisu qəsəbəsində “110/35 kV-luq “İstisu” yarımstansiyasının açılışı isə bu müəssisənin dayanıqlı və etibarlı enerji təchizatında əhəmiyyətli rol oynayacaq. “İstisu” sanatoriyasının və “İstisu” mineral su zavodunun elektrik təchizatı ilə yanaşı, yaxın perspektivdə inşası nəzərdə tutulan turizm obyektlərinin də enerji dayanıqlılığı təmin olunacaq.

Kəlbəcərin həyatında yeni səhifə açan infrastrukturlardan biri də inşa edilən yol-nəqliyyat layihələridir. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu bu baxımdan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrindən biridir. Yol üzərindəki tunellər vahid yol şəbəkəsi olmaqla, digər ətraf bölgələrə də çıxışları təmin edəcək, eyni zamanda, Kəlbəcəri Göygöllə birləşdirəcək.

## Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu bölgənin çoxşəbəkəli nəqliyyat qovşağına çevriləcək

Sözügedən yol strateji nəqliyyat marşrutlarından biri kimi bölgədə bizneslə məşğul olan, sərmayə yatırmağa çalışan biznes icmasının gələcək fəaliyyətinin səmərəliliyini də artırmış olacaq. Çünki biznes layihələrində ən mühüm amillərdən biri yol infrastrukturudur, yol faktoru sahibkarların bazara çıxışı üçün xüsusi əhəmiyyət daşıyır. Kəlbəcərin ölkəmizdə dağ-mədən hasilatının mərkəzi olan Daşkəsənlə birbaşa əlaqəsinin yaradılması isə iqtisadiyyatımıza cox böyük dividendlər gətirə bilər. Hətta gələcəkdə bu istiqamətdə dəmir yolunun çəkilməsi də istisna edilmir ki, bu da mineral-xammal ehtiyatları ilə zəngin olan Kəlbəcər rayonunun ümumi iqtisadi potensialını dəfələrlə artıracaq.

Bu layihə məşğullun artmasında də əhəmiyyət kəsb edir. Belə ki, bu layihəyə cəlb edilmiş yüzlərələ işçinin iş yerləri ilə təmin edilməsi onların sosial vəziyyətinə müsbət təsir etməklə, bölgədəki digər nəqliyyat və yol qovşqalarının inşasına cəlb edilməsi üçün də şərait yaradır. Bundan başqa, həmin yol infrastrukturu çoxşəbəkləi nəqliyyat bağlantısı kimi Tərtər-Ağdərə-Kəlbəcər yolu ilə şaxələndiriləcək ki, ərazidə alternativ yolların böyük bir kompleksi formalaşacaq. Nəticədə bu bölgəyə iş adamları ilə yanaşı, turistlərin hərəkətində təhlükəsizlik və rahatlıq təmin olunacaq. Həmçinin zəngin kənd təsərrüfatı potensialı olan Kəlbəcərin iqtisadi imkanlarının ətraf bölgələrlə inteqrasiyasını da təmin edəcək. Ümumilikdə Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu inşası Qarabağ iqtisadi rayonunun əmək və iqtisadi resurslarının inteqrasiyasına, bölgənin iqtisadi layihələrinin bir-birinə bağlantısına təkan verməklə, yaxın zamanlarda iqtisadi inkişafa töhfəverici rol oynayacaq.




Kəlbəcər sanatoriyasının yaxın müddətdə tamamlanmasının ən mühüm iqtisadi faydası isə turizmə əlverişli qapı açılmasıdır. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür. Turizm xidmətində ən mühüm amillərdən biri olan nəqliyyat infrastrukturudur, bu baxımdan Kəlbəcərlə yaxın ərazidə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi xarici turistlərin birbaşa bu bölgəyə, o cümlədən “İstisu” sanatoriyasına asan və rahat gəlişini təmin edəcək.

### Turizm, biznes və sənaye üçün yeni imkanlar...

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”da nəzərdə tutulan əsas prioritetlərdən biri bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı zəruri təminatların yaradılmasıdır. Bu məqsədlə turizm sənayesinə müxtəlif iqtisadi stimullar verilib, turizm sektoru vergilərdən azad olunub. Bu ərazilərə investisiya qoyuluşunu artırmaq üçün müxtəlif dövlət dəstəyi tədbirləri müəyyən olunub.

Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmış və tədbirlər planına uyğun olaraq davamlı işlər görülür, turizm marşrutları hazırlanır. Öz füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri, geniş turizm imkanları ilə bütün qonaqların diqqətini cəlb edən Kəlbəcərin müasir turizm infrastrukturlarının istifadəyə verilməsindən sonra bölgəyə çoxminli turizm axınları baş tutacaq ki, bu bölgədə böyük turizm habı formalaşacaq. Bu, həmin rayonda məşğulluğun təmin olunmasında və əhalinin gəlirinin artmasına səbəb olacaq, eləcə də Azərbaycana gələn turistlərin sayının 3 milyon nəfəri ötməsinə imkan yaradacaq.

***E.CƏFƏRLİ***

## İcma anons verdi

Sentyabrın 2-də Ermənistanda revanşist qüvvələrin, qondarma rejimin tör-töküntülərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü təhdid edən təxribatçı açıqlamalarını, o cümlədən Qərbdəki havadarlarına arxalanaraq yenə “beynəlxalq təminat altında Qarabağa qayıdış”dan dəm vuranların biz Qərbi azərbaycanlıların qayıdış hüququnu danmasını kəskin şəkildə pisləyirik.

## Vaxt yetişdi...
## Mühacirətdə olan Qərbi Azərbaycan hökuməti təsis ediləcək

Bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: “Qərbi Azərbaycan İcması son vaxtlar bir neçə dəfə Ermənistan hökumətindən öz ərazisində Azərbaycanın suverenliyinə qarşı çıxan qüvvələrin fəaliyyətinə son qoyulması ilə bağlı çağırış etmişdir. Görünən odur ki, Ermənistan hökuməti nəinki bu addımı atmır, əksinə üzdə sülhdən danışaraq kənarda anti-Azərbaycan addımlara rəvac verir.

Qərbi Azərbaycan İcmasının Ermənistanın suverenliyini və ərazi bütövlüyünü təhdid etmədiyi halda, özünü “mühacirətdə olan hökumət” kimi qələmə verən qondarma rejimin tör-töküntülərinin, Ermənistanın sabiq xarici işlər nazirinin rəhbərlik etdiyi “repatriasiya komissiyası”nın Ermənistanda belə rahat fəaliyyət göstərməsi qəbuledilməzdir. Bəyan edirik ki, Ermənistan bu təhlükəli siyasətdən əl çəkməsə, onda biz Azərbaycan Respublikasında mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin təsis edilməsi istiqamətində işlərə başlayacaq və bu xüsusda, ilk olaraq yeni seçilmiş parlamentdə “Qərbi Azərbaycana qayıdış” komissiyasının yaradılması məqsədilə Milli Məclisə müraciət ünvanlayacağıq”.

# Azərbaycan və Pakistan yeni iqtisadi hədəfləri müəyyənləşdirir

### Bakıda keçiriləcək biznes forumda imkanlar daha geniş formatda dəyərləndiriləcək

Sentyabrın 16-da Bakıda Azərbaycan-Pakistan biznes forumu keçiriləcək. Bununla bağlı hər iki ölkənin müvafiq qurumları razılıq əldə edib. Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadovun bu ölkənin özəlləşdirmə üzrə federal naziri, İnvestisiya Şurasının üzvü Əbdül Alim Xanla görüşündə ikitərəfli əməkdaşlığın artırılması müzakirə olunub və tərəflər iqtisadi imkanları daha geniş formatda dəyərləndirmək üçün Bakıda biznes forumun keçirilməsini qərara alıblar. Biznes forum Pakistan və Azərbaycan arasında işgüzar fəallığın inkişafına kömək etmək məqsədi daşıyır. Tədbirdə iki ölkənin dövlət və özəl sektorunu təmsil edən sahibkarlıq subyektlərinin iştirakı ilə müxtəlif sahələrə investisiya qoyuluşları, eləcə də birgə layihələrin təşviqi məsələləri nəzərdən keçiriləcək.

Qeyd edək ki, Azərbaycan və Pakistan arasında son illərdə dövlət başçıları, hökumət üzvləri, iqtisadi qurumları və biznes nümayəndələri arasında səfərlər və görüşlər intensiv xarakter alıb və qarşılıqlı səfərlər ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni imkanları təşviq etməkdədir. İyulun 11-də Prezident İlham Əliyevin Pakistana səfəri isə münasibətlərin yeni tarixi zirvəyə yüksəlməsində güclü bünövrə yaradıb. İki ölkə arasında dərin qarşılıqlı inam və etimadın, iradənin olması əlaqələri bütün sahələrdə irəliyə aparmağa stimul verir.

Azərbaycan Prezidentinin səfəri zamanı ölkələr arasında əməkdaşlığın müasir formatı və geniş gündəliyi müəyyənləşib ki, bu da çoxşaxəli iqtisadi təmasların yeni ruhunu əks etdirir. Tərəflərin əsas hədəflərindən biri investisiya imkanlarının çoxvizyonlu qiymətləndirilməsi və zəruri hesab edilən sahələrə sərmayə qoyuluşlarını artırmaqdır. Pakistanın İnvestisiya Şurasının üzvü Əbdül Xan bildirib ki, hər iki ölkənin biznes icması üçün ərzaq təhlükəsizliyi, informasiya texnologiyaları, səhiyyə, kənd təsərrüfatı və digər sahələrə sərmayə qpyuluşları maraq kəsb edir. Həmçinin Azərbaycanın Pakistandakı enerji sektorunda potensial sərmayədar kimi çıxış etməsi istisna olunmur, bu ölkənin mayeləşdirilmiş təbii qaz, karbamid, elektrik enerjisi və digər sahələrinin müasirləşdirilməsinə dərin ehtiyac var ki, bu da Azərbaycan üçün strateji investisiya prioritetlərinə daxildir.

## Ticari əlaqələrdə yeni güzəşt rejimləri tətbiq oluna bilər

Hazırda Pakistan-Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi o qədər də yüksək deyil, 2023-ci ildə mal mübadiləsi təxminən 30 milyon dollardır, bu, hər iki ölkənin potensialının çox kiçik bir hissəsidir, mövcud gücü isə ən azı 5-10 dəfə artırmaq mümükndür. Bu məqsədlə tərəflər azaf gömrük rejiminin yaradılması, idxal və ixracda qarşılıqlı güzəşt tariflərinin tətbiqi, ticarəti asanlaşdırılması üçün elektron resursların imkanlarından faydalanmağı məqsəduyğun hesab edir. Azərbaycan bu istiqamətdə ilk addımı atıb və Pakistandan ixrac olunan düyü məhsuluna görə, gömrük rüsumunu aradan götürüb. Qeyd edək ki, Azərbaycana 25 ölkədən düyü idxal edir ki, məhsulun təxminən 5 faizi  Pakistanın payına düşür. Gömrük tətilindən sonra 2024-cü ilin ilk birinci yarısında Pakistandan düyü idxalı 2,7 dəfə artıb.

Qarşılıqlı ticarətdə bu tipli güzəşt siyasətinin genişləndirilməsi istisna deyil və tərəflər preferensial ticarət formatı üzrə əməkdaşlığın qurulmasında da eyni mövqe nümayiş etdirir. Pakistanın Ticarət Nazirliyi ilə Azərbaycanın müvafiq iqtisadi qurumları tranzit və güzəştli ticarət sazişi üzrə danışıqları davam etdirir. Yeni ticari təşəbbüslərə əsasən, hər iki ölkə arasında idxal strukturunun hərtərəfli təhlil edilməsi və müvafiq qərarlar verilməsi, dərman vasitələrinin və ağıllı mobil telefonların ixracının artırılması, digər ticari ideyalar üzərində nəticəəsaslı addımların atılması nəzərdə tutulur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi güzəştli ticarətlə bağlı imzalanmış sənəd güzəştli ticarət formatına dair niyyətlərin başlanğıcıdır.

Bundan əlavə, investisiyaların cəlb edilməsi və ixracın artırılması üçün strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, sahibkarlar arasından birbaşa əməkdaşlığının gücləndirilməsi də qarşıya vəzifə kimi qoyulub. İlkin ssenariyə əsasən, Azərbaycanın bu ölkəyə yatıracağı sərmayələrin ilkin həcmi təxminən 2 milyard dollar olacaq. “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında tranzit ticarət haqqında



Saziş” bu sahədə ticari və investisiya dinamikasının yeni mərhələyə yüksəlməsində əsas hüquqi sənədlərdən biri olacaq.

## İslamabad Türk dövlətləri ailəsində mövqeyini möhkəmləndirməyə çalışır

Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Pakistanın Kommunikasiyalar və Özəlləşdirmə Nazirliyi arasında 2 ay əvəl imzalanmış dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu özəlləşdirmə prosesində hər iki ölkənin səhmdarlar qrupunun yer alması, özəl layihələrə cəlb edilməsi baxımından fürsətlər açır. Həmçinin ölkələr arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu da mədənçıxarma sənayesində birgə səylərin əlaqələndirilməsini, qiymətli metalların istismarında yaxın iştirakını nəzərdə tutur.

Pakistanın özəlləşdirmə üzrə federal naziri regiondakı çoxtərəfli iqtisadi formatların mühüm əhəmiyyətinə də diqqət çəkərək Türkiyə, Azərbaycan və Pakistan birgə iqtisadi proqramlarının perspektivlərini də yüksək dəyərləndirib. Nazirin fikrincə, 3 qardaş ölkənin yeni iqtisadi həmrəylik platforması, ümumilikdə, bütün regionun inkişafında mühüm rol oynaya bilər. Bundan başqa, türkdilli dövlətlərin birgə proqramlarım İslamabad üçün də maraq doğurduğundan nəqliyyat-tranzit və enerji latyihələrində təmsil olunmağı qərarlaşdırıb. Pakistan  Orta Dəhlizin əsas coğrafi hüdudlarında yer alır və Mərkəzi Asiya-Xəzər-Avropa nəqliyyat-kommunikasiya coğrafiyalarında mövqeyini artırmaq istəyir. Bu baxımdan Türk Dövlətləri Təşkilatında (TDT) yer almaqla Pakistan geoiqtisadi həmrəyli ailəsində yerini möhkəmləndirmək istəyir.

***ELBRUS CƏFƏRLİ***

# Türkiyə Prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib



Sentyabrın 2-də Baş prokurorunun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Anar Nəsibovdan ibarət nümayəndə heyəti qardaş Türkiyənin Ankara şəhərində "2024-2025 Yeni Ədliyyə İli Açılış Tədbiri"ndə iştirak ediblər.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Ali Məhkəmənin sədri Ömer Kerkez, Baş prokuror Muhsin Şentürk, digər hakim və prokurorlar iştirak ediblər.

Tədbir çərçivəsində Prezident Rəcəb Tayyib Ərdoğan prokurorluğun nümayəndə heyətinin rəhbəri Heydər Məmmədovu, eyni zamanda, tədbirdə iştirak edən Ali Məhkəmənin nümayəndə heyətinin rəhbəri, həmin məhkəmənin sədr müavini Çingiz Əsgərovu qəbul edib.

Daha sonra prokurorluğun nümayəndə heyəti Türkiyənin Baş prokuroru Muhsin Şentürk və Ali Məhkəmənin sədri Ömer Kerkezlə rəsmi görüşlər keçirib, ölkələrimiz arasında hüquqi əməkdaşlığın daha da inkişaf etdirilməsi, təcrübə mübadiləsinin intensivləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.

Görüşlər zamanı sentyabrın 29-dan oktyabrın 2-dək Bakı şəhərində keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağı barədə həmkarlara məlumat verilib, tədbirə qatılacaq Türkiyənin Baş prokuroru Muhsin Şentürklə konfrans barədə müzakirələr aparılıb. Həmçinin noyabr ayında Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 tədbirinin müstəsna tarixi əhəmiyyəti və həmin mötəbər tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi mövzusunda yüksək səviyyəli plenar sessiyanın keçiriləcəyi barədə həmkarlara ətraflı məlumat verilib.

# Türkiyənin iqtidar partiyası Milli Məclisə seçkilərdəki qələbə münasibətilə Yeni Azərbaycan Partiyasını təbrik edib




Ümid edirəm ki, Milli Məclisə 1 sentyabr seçkilərinin nəticələri Azərbaycanın gələcək inkişafına töhfə verəcək və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinin rəhni olacaq. Təbrik edirəm və yeni çağırış Azərbaycan parlamentinə nailiyyətlər arzu edirəm.

Bu barədə AZƏRTAC-a müsahibəsində Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Əfqan Ala bildirib.

Onun sözlərinə görə, Türkiyə ilə Azərbaycan arasında münasibətlər Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı kontekstində uğurla inkişaf edir, Türkiyənin Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında sıx əlaqələr, müxtəlif məsələlər üzrə iki aparıcı siyasi qüvvələrin mövqelərinin oxşarlığı qardaş ölkələr arasında fəal qarşılıqlı əlaqələrin davam etdirilməsinin qarantıdır.

"1 sentyabr seçkilərində qazandığı uğur münasibətilə Yeni Azərbaycan Partiyasını təbrik edirəm. Əminəm ki, Azərbaycandan olan qardaşlarımızla yeni əhəmiyyətli nailiyyətlər və daha sıx əməkdaşlığa nail olacağıq", - deyə Ala bildirib.

Türkiyənin iqtidar partiyasının nümayəndəsi sentyabrın 1-də seçkilərin ilk dəfə Azərbaycanın bütün ərazisində, o cümlədən işğaldan azad edilmiş rayonlarında keçirilməsi faktını da yüksək qiymətləndirib. "Bu seçkilər qardaş Azərbaycanın inkişafında tarixi mərhələ oldu. Ümid edirəm ki, Azərbaycanın Milli Məclisinə seçkilərin nəticələri təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının rifahına xidmət edəcək", - deyə o qeyd edib.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Sizi və Yeni Azərbaycan Partiyasını Azərbaycan Respublikası Milli Məclisində təmsil edən deputatları parlament seçkilərində qazanılmış inamlı qələbə münasibətilə Belarusun "Belaya Rus" partiyası adından təbrik edirəm.

Parlamentdə mütləq çoxluq Azərbaycan vətəndaşlarının etimadının göstəricisi olmaqla yanaşı, partiyanın insanlar üçün əhəmiyyətli layihə və təşəbbüslərin həyata keçirilməsi istiqamətində uzunmüddətli səmərəli fəaliyyətinin məntiqi nəticəsidir.

Əminəm ki, seçilmiş deputatlar ölkənin iqtisadi potensialının daha da inkişaf etdirilməsi, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, Azərbaycanın beynəlxalq aləmdə siyasi nüfuzunun qorunub saxlanılması və möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcəklər.

Milli Məclisin yeni tərkibinə tükənməz enerji, sadiq tərəfdaşlar və Azərbaycan Respublikasının mənafeyi naminə uğurların əldə edilməsi üçün düzgün, düşünülmüş qərarların qəbul edilməsini arzulayıram.

"Belaya Rus" partiyası Yeni Azərbaycan Partiyası ilə ikitərəfli əlaqələrin inkişafına səmimi maraq göstərir və müxtəlif məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazırdır.

Partiyalararası əməkdaşlıq perspektivlərinin müzakirəsi və sazişin imzalanması üçün Belarus və yaxud Azərbaycan Respublikası ərazisində görüşmək imkanının nəzərdən keçirilməsini təklif edirik.

"Belaya Rus" partiyası partiya diplomatiyası xətti ilə dost dövlətlərin siyasi partiyaları ilə beynəlxalq əlaqələri genişləndirməyə hazırdır.

Məhsuldar birgə fəaliyyətə ümid edirik.

**Hörmətlə,**

**"Belaya Rus" partiyasının sədri Oleq Romanov**

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Qardaş ölkəmiz Azərbaycanda sentyabrın 1-də keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının Milli Məclisdə 125 deputat mandatından 68-ni qazanması bizim hədsiz sevincimizə səbəb olmuşdur.

Dünyada və özəlliklə Türk dünyasında haqq etdiyi yerini tutmuş qardaş ölkə Azərbaycanın qardaş Yeni Azərbaycan Partiyasının əldə etdiyi bu böyük uğurun baş memarı möhtərəm Prezidentimiz cənab İlham Əliyevi və sizləri təbrik edirik. Xalqın etimadını qazanmış hər iki partiyamız bu məsuliyyətlə parlaq gələcək üçün var gücü ilə çalışacaqdır.

Makedoniya türklərinin siyasətdəki ən güclü siyasi təmsilçisi olan Şimali Makedoniya Türk Demokratik Partiyası adından Makedoniya türklərinin salamını çatdıraraq ən dərin hörmət və sevgimizi ifadə edirik.

**Türk Demokratik Partiyasının sədri,**

**millət vəkili Dr. Beycan İLYAS**

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Dost və qardaş ölkə Azərbaycanın bütün ərazisində baş tutan parlament seçkilərinin sülh və güvən içərisində tamamlanmasından böyük məmnunluq duyuruq.

Azərbaycan xalqının iradəsini ortaya qoyan seçkinin nəticələri əsasında formalaşacaq yeni Milli Məclisin "bir millət - iki dövlət" anlayışı ilə ortaq hədəflərə doğru birlikdə yol aldığımız dost və qardaş Azərbaycan xalqı, qardaş Azərbaycan dövləti, Yeni Azərbaycan Partiyası və Türk dünyası üçün xeyirli olmasını diləyirik.

Seçilən millət vəkillərini səmimi-qəlbdən təbrik edir, böyük uğurlar arzulayırıq.

**Zafer Sırakaya**

**Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini,**

**Türkiyə Böyük Millət Məclisinin üzvü**

## Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda tədbir keçirilib

# 16-cı beynəlxalq konfrans...

Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlamaqda davam edir. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə, Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş həmin tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib. Tədbirdə XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrinin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq məqsədilə Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldilər. Bakı Təşəbbüs Qrupu yarandığı vaxtdan indiyədək bir sıra mühüm tədbirlər təşkil edib. Belə tədbirlərdən biri də sentyabrın 3-də Bakıda Fransanın işğalı altındakı Mayot adasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsidir. "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusundakı tədbir Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə son bir il ərzində reallaşdırılan 16-cı beynəlxalq tədbirdir. Konfransda Fransanın işğalına qarşı mübarizə aparan və Mayot adasının özünün tərkibinə geri qayıtmasına çalışan Qəmər Adaları İttifaqı, o cümlədən Mayot adasının ictimai-siyasi xadimləri, diplomatlar, elmi dairələrin nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, hüquq müdafiəçiləri siyasi partiyaların üzvləri iştirak ediblər.

## Abbas Abbasov: Mayot adasının azadlıq mübarizəsinə də dəstək verəcəyik

Tədbir iştirakçıları Qəmər adalarında Fransanın müstəmləkəçilik tarixi, Mayotun Fransa tərəfindən işğalı və bunun nəticəsində adanın vətəndaşlarına vurulmuş ziyan, Fransanın bu bölgədə müstəmləkəçilik siyasətinin geosiyasi və iqtisadi maraqları, habelə Mayot adası ilə bağlı Qəmər Adaları İttifaqının və beynəlxalq təşkilatların mövqeyi ətrafında müzakirələr aparıblar. Tədbirdə Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, son bir neçə ayda paytaxt Bakı müstəmləkəçilikdən əziyyət çəkən xalqların və ölkələrin azadlıq mübarizəsi ilə bağlı beynəlxalq konfranslara ev sahibliyi edir. Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkən, əzilən xalqların azadlıq uğrunda mübarizələrinə dəstək verir. A.Abbasov Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Qəmər adaları və Mayot adasının tarixindən, azadlıq mübarizəsindən danışıb, bəzi statistik rəqəmləri səsləndirib. İcraçı direktor bu konfransın Mayot adasının azadlıq mübarizəsinə də dəstək verəcəyindən əminliyini ifadə edib.

## Ahmed Tabet: Qəmər xalqının müstəqilliyi BMT tərəfindən tanınsa da...

Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet isə çıxışında Azərbaycan hökumətinin və Bakı Təşəbbüs Qrupunun dəstəyini yüksək qiymətləndirib. Ölkəsinin müstəqillik uğrunda mübarizəsindən bəhs edən qonaq bildirib: "Fransa xalqımıza qarşı müstəmləkəçilik siyasəti aparır. Qəmər xalqının müstəqilliyi BMT tərəfindən tanınıb. 1975-ci ildən sonra Fransa yenidən ordusunu Mayota yerləşdirdi. BMT-nin Fransa ordusunun Mayotdan çıxarılması ilə bağlı qətnamələri olsa da, müstəmləkəçi ölkə buna əhəmiyyət vermir və bununla Fransa beynəlxalq hüquqa qarşı çıxır".







## Mohamed Toihiri: Biz azadlıq mübarizəmizi sonadək davam etdirəcəyik

Qəmər Adaları İttifaqının BMT-də sabiq nümayəndəsi Mohamed Toihiri çıxışında deyib ki, Fransa tərəfindən adalarımızda neokolonializm siyasəti hələ də davam etdirilir: "İnsanlarımız əziyyət çəkir, bir yerdən başqa yerə köçürülürlər. Bu əziyyətlər nəticəsində minlərlə ada sakini həyatını itirib, on mindən çox insan adadan qovularaq çıxarılıb". Sabiq nümayəndə konstitusiyada Qəmər adaları ilə bağlı dəyişiklik edilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, Fransa beynəlxalq hüququn prinsiplərinə zidd hərəkət edir və ada sakinlərinin hüquqlarını nəzərə almır. "Biz azadlıq mübarizəmizi sonadək davam etdirəcəyik", - deyə Mohamed Toihiri diqqətə çatdırıb.

Qəmər Adaları İttifaqının təmsilçisi, hüquq müdafiəçisi Mohamed Rafsandjani Hassani də qeyd edib ki, Fransa Konstitusiyasının Qəmər adaları ilə bağlı 53-cü maddəsi saxtalaşdırılıb. Onun sözlərinə görə, bu, Fransa tərəfindən Qəmər adalarının qanunsuz olaraq zəbt edilməsi deməkdir. Mayotun Fransaya birləşdirilməsi və qəmərlilərə vurulmuş ziyandan danışan Hassani deyib ki, məhz 53-cü maddəyə əsasən, Mayot adası Fransaya inteqrasiya edilməyib. Bu da Fransanın adaları işğal etməsinin sübutudur.

"Fransanın məqsədi Mayot adasında yerləşdirdiyi silahlı qüvvələrinin mövqeyini gücləndirməkdir, bu ölkəni adanın sakinlərinin həyat şəraiti maraqlandırmır". Bu fikirləri isə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) şöbə müdiri Cavid Vəliyev deyib. O bildirib ki, İkinci Dünya müharibəsindən sonra 1945-ci ildə qəbul edilən BMT Nizamnaməsi vətəndaşların hüquqlarının qorunmasına dair öhdəliyi ifadə edir və insan hüquqları ilə bağlı ali prinsipləri rəhbər tutur: "BMT-nin 1960-cı ildə qəbul etdiyi qətnaməsinin tələblərini pozan Fransa Qəmər Adaları İttifaqının sərhədlərinə müdaxilə edir və işğal siyasəti aparır. Fransa 2011-ci ildə Mayotu özünün müstəmləkəsinə çevirib". C.Vəliyev söyləyib ki, Fransa müstəmləkəçilik siyasəti aparmaqla digər xalqların, ölkələrin hüquqlarını pozur.

## Əməkdaşlıq sazişi imzalanıb

Qeyd edək ki, Fransanın müstəmləkəçiliyi altında olan Mayot adasının Maore komitəsi ilə Bakı Təşəbbüs Qrupu arasında əməkdaşlıq haqqında saziş imzalanıb. Sənədi Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov və Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet imzalayıblar.

***N.BAYRAMLI***

# Aram Bransonun terror cəhdinin arxasında kimlər dayanır?

Ötən həftəsonu ABŞ və Azərbaycan mediasının ortaq gündəmini zəbt edən əsas mövzulardan biri erməniəsilli Aram Bransonun azərbaycanlılara qarşı istifadə üçün bomba hazırlamağa cəhd göstərməsi və onun federal axtarışa verilməsi oldu.

Əslində, ən güclü erməni lobbisinin fəaliyyət göstərdiyi ABŞ-da belə halların hər zaman baş verə biləcəyi ehtimal edilsə də, şok effekti yaradan bu xəbər özü ilə bir çox sualları da gətirdi. Ona qarşı yalan ifadə vermə və faktı saxtalaşdırma, yaxud ört-basdır etmə maddələri ilə cinayət işi açılıb. Aşağıda sadalayacağımız hərəkətlərində açıq terror cəhdi olan Aram Bransona qarşı niyə yalnız bu maddələr üzrə cinayət işinin açılması yaranan ilk sualdır.

Ədliyyə Departamentinin açıqlamasında bildirilir ki, 2003-cü ildə doğulan, ata tərəfdən afro-amerikalı, ana tərəfdən isə erməniəsilli olan Aram Branson hüquq-mühafizə orqanlarının diqqətini ilk dəfə 2023-cü ilin yanvarında Çikaqo Dövlət Universitetinin yataqxanasındakı otağında barıtı bilmədən işə salaraq partlayış törədən zaman cəlb edib. Həmin vaxt o, hüquq-mühafizə orqanlarına, sadəcə, internetdə gördüyü videonu təqlid etdiyini açıqlayıb.

Sonra Bransonun otağında axtarış aparılıb, mobil telefonu və kompüteri götürülüb. Təhqiqatçılar otaqdan kalium nitrat, kömür, kükürd və izopropil spirti aşkar ediblər. Lakin Aram Bransona qarşı hələ də cinayət işi başladılmayıb.

2023-cü il avqustun 20-də Aram Branson Bostondakı Loqan Beynəlxalq Hava Limanından Parisə, oradan isə İrəvana uçmağı planlaşdırıb. Lakin baqaj yoxlanışı zamanı onun yükündən partlayıcı maddələr aşkarlanıb. Branson Gömrük və Sərhəd Müdafiəsi rəsmiləri tərəfindən sorğuya çəkilərkən heç vaxt odlu silah və ya partlayıcı maddə ilə işləmədiyini deyərək yalan ifadə verib.

Bir neçə ay əvvəl otağında partlayış törədən, hətta baqajında da bənzər maddələr aşkarlanan şəxsin hava limanından rahatlıqla buraxılması sual doğuran digər məqamdır.

Hadisələr 2023-cü ilin yanvar və avqust aylarında baş verib. Ədliyyə Departamenti isə məlumatı o, ABŞ-ı tərk etdikdən bir il sonra - bu ilin avqustunda yayıb. Əllərində aşkar faktlar olan hüquq-mühafizə orqanları niyə bu qədər gözləyiblər? Bu məsələnin indi gündəmə gətirilməsinin səbəbi nədir? Bunlar da məsələ ilə bağlı açıq qalan suallardır.

## Bransonun videoları nə göstərir?

Bransonun kompüterində inqilabi dəstələrin formalaşması, maliyyələşdirilməsi və silahlandırılmasını izah etdiyi təxminən 10-a yaxın video var. Videolar 2022-ci ilin mayında qeydə alınıb.

O, videolarında bəzi inqilabçı və terror təşkilatlarının adlarını çəkir, onların daxili struktur və qaydalarını izah edir, maliyyə cəlbi barədə məlumat verir. O, bomba və digər silahların əldə olunmasının bahalı, çətin olduğunu, qanuni maliyyə mənbələrinin (məsələn, üzvlük haqları) silah almaq xərclərini ödəmək üçün kifayət etməyəcəyini bildirir, silahların maliyyələşdirilməsi üçün narkotik vasitələrin satışı və ya soyğunçuluq təklifini irəli sürür.

O, videolarında, həmçinin potensial hədəfləri barədə danışır, bu baxımdan azərbaycanlı hərbi rəsminin və müxtəlif siyasi fiqurların adını çəkir. Branson bildirir ki, erməni dili terrorçu və inqilabçı olmaq istəyənlər tərəfindən istifadə edilməlidir. O qeyd edir ki, "terrorun dili ingilis deyil, erməni dilidir", çünki kəşfiyyat orqanlarının erməni dilində ünsiyyətə nəzarəti çətindir. O əlavə edir ki, erməni-amerikalı inqilabçılardan ibarət bir qrup məhz erməni dilində deyil, ingilis dilində danışdıqları üçün tutulub. Onun bomba hazırlama videoları da erməni dilindədir.

Bransonun kompüteri onu da aşkara çıxarıb ki, o, 2022-ci ildə ABŞ-da, həmçinin xaricdə Azərbaycan və Türkiyəyə məxsus diplomatik binaların yerləşdiyi yerlərə dair axtarışlar aparıb. Axtarılanlar arasında Azərbaycan və Türkiyə səfirlərinin iqamətgahları da olub. Həmçinin o, "kənardan səfirliyin daxilindəki adamı güllələyərəmsə, hansı ölkədə həbsə girərəm" mövzusunda axtarış həyata keçirib.

Bütün bu sadalananlar A.Bransona qarşı terror maddəsi ilə cinayət işi açmaq üçün ciddi səbəblərdir.



Qeyd olunanlar, onun fəaliyyətləri və yazışmalar göstərir ki, Branson tək hərəkət etməyib, onu istiqamətləndirən şəxslər və ya qruplar olub. İstintaq məlumatlarına əsasən, o, silahlı mübarizə yolu ilə Ermənistanın müstəqilliyinə və "erməni ədaləti"nə nail olmağa çalışan "fədai"lərin yolu ilə getməyə can atıb.

2022-ci ilin payızında sosial media vasitəsilə yazışmalarında A və B kimi qeyd olunan və adları açıqlanmayan iki etnik erməni dostu ilə danışıb. Onlar da müzakirələrində yaşamaq, praktika və taktiki hərbi hazırlıq üçün hərbi düşərgə yaratmaq istəklərini ifadə ediblər.

Hətta otağında partlayış zamanı Bransonun A və B adlandırılan şəxslərlə telefon danışığının olduğu da aşkarlanıb. Onun polisə ifadə verənə qədər onlarla müzakirəni davam etdirdiyi məlum olub.

## Branson kimlərlə hərəkət edib?

Sonrakı araşdırma zamanı məlum olub ki, Bransonun və A-nın 2022-ci ilin yayında Azərbaycan torpaqlarına səfər edərək orada yaşayan ermənilər üçün hərbi təlim keçmək cəhdləri uğursuz olub.

O, internet vasitəsilə üzvü olduğu Ermənistan İnqilabi Federasiyası (Daşnaksütyun) tərəfindən həyata keçirilmiş partlayış aktları barədə də axtarış aparıb.

2022-ci ilin noyabrında Branson B adlı şəxsə Ermənistan İnqilabi Federasiyasına üzv olmaq üçün and içdiyinə dair mesaj yazıb. Sonrakı araşdırma onun Federasiyanın Çikaqo şöbəsinə qəbul edildiyini və mərasim zamanı odlu silahla təntənəli atəş açıldığını göstərir. Branson vəzifəyə təyin olunarkən təşkilat tərəfindən ona verilmiş və üzərində "11/11/22" yazısı olan güllənin fotosunu da paylaşıb. Bu güllə partlayışdan sonra onun otağından tapılıb.




A.Bransonun sosial media üzərindən axtarışlarına, əlaqələrinə nəzər saldıqda onun silahlı terrorizmlə əlaqələri aydın görünür. Radikal Erməni İnqilabi Federasiyasının (ARF) üzvü kimi Aram Branson Çikaqo qurumun filiallarının işində fəal iştirak edib. O, həmçinin Erməni Gənclər Federasiyasının "Böyük Boston "Njde" bölməsinin üzvü olub. Njdenin kim olduğu hər kəsə yaxşı məlumdur. Bununla yanaşı, o, Amerika Erməniləri Milli Komitəsinin (ANCA) bir çox fəaliyyətlərində aktiv iştirak edib, onların lobbiçilik fəaliyyəti çərçivəsində ABŞ Konqresini ziyarət edib. ANCA-nın sosial şəbəkə hesablarında bununla bağlı məlumatlar yerləşdirilib. İndiki halda ABŞ-da konqresmenlərin və rəsmilərin bu təşkilatlarla əməkdaşlıq etmələri, ümumilikdə dəfələrlə terror hərəkətlərində adları hallanan bu qurumların cinayət məsuliyyətinə cəlb olunmaması təəssüf və təəccüb doğurur.

2023-cü ilin avqustunda ABŞ-ı tərk edərkən Branson Ermənistan Amerika Universitetində oxumaq üçün İrəvana getdiyini bildirib. Bu yaxınlarda əldə edilən məlumatlar onun Ermənistanda olduğunu göstərir. Onun yuxarıda göstərilən aktları ilə bağlı ABŞ-a gəlməsi üçün müraciət olunsa də, Branson geri qayıtmaqdan imtina edib. Maraqlıdır ki, harada olduğu bilinən ABŞ vətəndaşının ölkəsinə ekstradisiyası az qala mümkünsüz kimi təqdim edilir. Aram Branson isə rahatdır. Necə ki, rahat ABŞ-da hərəkət etdi, hava limanından keçərək Ermənistana getdi, indi də orada rahatlıqla ailə tədbirlərinə qatılır, fotolar paylaşır, müsahibələr verir.

Hansısa səbəb məsələnin məhz bir il sonra gündəmə gətirilməsi üçün şərait yaradıbsa, digər bir məqam bu hadisəyə uzun müddət göz yumulmasına səbəb olub. Başqa dillə desək, indiki halda bu məlumatın aşkara çıxarılması bəlkə də kimlərinsə "cəzalandırılmasına" xidmət edir. O zaman deyə bilərik ki, bir il ərzində hadisənin gizlədilməsi və şəxsin cinayət məsuliyyətinə cəlb edilməməsi də kimlərinsə marağı naminə baş verməyib. Hər halda ABŞ-dakı rəsmi orqanların cavab verməli olduğu bir çox suallar açıq qalır.

# Hidayət-80: Böyük ziyalının yaradıcılıq üfüqləri



Nizami CƏFƏROV

Yaradıcı insan, dəfələrlə deyilmiş fikri bir daha təkrar etsək, bütöv bir Dünyadır ki, onun zəngin tarixi, geniş coğrafiyası var. Və bu Dünya mənsub olduğu xalqın möhtəşəm Dünyasının ayrılmaz tərkib hissəsidir... Hidayətin Dünyası kimi...

Müasir Azərbaycan ziyalılığının görkəmli nümayəndələrindən olan Hidayət artıq neçə on illərdir ki, həm Azərbaycanda, həm də onun sərhədlərindən uzaqlarda böyük şair, nasir, dramaturq, publisist, tərcüməçi, ictimai xadim (və dövlət xadimi) kimi tanınır.

Uzun illər Azərbaycan təhsilinə uğurla rəhbərlik etmiş görkəmli (və milli) ictimai xadim, professor Misir Mərdanov, haqlı olaraq, yazır:

“Ziyalı xalqın düşünən beyni, mənəvi diriliyidir. Ziyalı Vətən və millət yolunda zəkasını, ağlını, intellektual potensialını əsirgəməyən İNSANdır. Ziyalı xalqına, dövlətinə, dövlətçiliyinə sədaqətli xidməti ilə, onlara verdiklərinin sanbalı və miqyası ilə böyükdür. Ziyalı üçün Vətən sevgisindən, millət duyğusundan ali hiss yoxdur!!!

Hidayət Orucov məhz bu sadaladığım milli-mənəvi dəyərləri özündə cəmləşdirən, fəaliyyətində onları gerçəkləşdirən milli ruhlu, vətəndaş qeyrətli, xeyirxah ziyalılardandır”...

Hidayət Xuduş oğlu Orucov 1944-cü ilin sentyabr ayının 5-də Zəngəzur mahalı Mığrı bölgəsinin Maralzəmi kəndində anadan olmuşdur. Səməd Vurğun adına Aldərə kənd orta məktəbini qızıl medalla qurtardıqdan sonra təhsilini Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin filologiya fakültəsində davam etdirmişdir.

Doğma kəndində məktəb müdiri işləmək qərarına gələn Hidayət Universitetin daxil olduğu əyani şöbəsindən qiyabiyə keçir. Və bir neçə il bu vəzifədə çalışdıqdan sonra İrəvanda çıxan “Sovet Ermənistanı” qəzetinə ədəbi işçi dəvət olunur. Lakin bu işində də çox qalmır... Universiteti müvəffəqiyyətlə bitirib, 1968-ci ildə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor təyin edilir. Hidayət on beş ildən artıq - Bakıya köçənə qədər Azərbaycanın Ermənistanda bir beyin (və təfəkkür!) mərkəzi olan həmin teatra rəhbərlik edir.

Bu illər hələ kifayət qədər gənc qələm (və coşqun ürək!) sahibinin dünyagörüşünün genişlənməsində, həyatı dərindən öyrənməsində, təşkilatçılıq istedadının mükəmməlləşməsində həlledici rol oynamış, özünəməxsus (və təkrarsız!) yaradıcı şəxsiyyətini formalaşdırmışdı. Bütün Ermənistanı - qədim Azərbaycan - türk torpaqlarını öz teatrı ilə addım-addım gəzərək, məlum açıq və ya gizli maneələr olsa da, geri çəkilməyib Ermənistan azərbaycanlılarını mədəniyyətə, dəyanətli, qürurlu olmağa çağıranda Hidayət iyirmi, otuz yaşlarında idi. Bir-birinin ardınca İrəvanda şeir kitabları nəşr olunur, dramları teatrda tamaşaya qoyulurdu.

Azərbaycan ziyalısının 1978-ci ildə Ermənistan SSR Əməkdar mədəniyyət xadimi fəxri adını alması təsadüfi deyildi. Və görünür, bu fəxri adı istedadlı, zəhmətkeş gəncə verməmək, sadəcə, mümkün olmamışdı...

Artıq Ermənistanda yaşayıb-yaratmağın bir azərbaycanlı ziyalı üçün tamamilə dözülməz olduğu dövrdə Hidayət Bakıya köçmək məcburiyyəti altında qalır. Və çox keçmir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayır, azərbaycanlılar kütləvi şəkildə Ermənistandan deportasiya edilirlər.

Etiraz əlaməti olaraq on il qabaq aldığı Ermənistan SSR Əməkdar mədəniyyət xadimi fəxri adından imtina edən Hidayət Bakıda “Gənclik” nəşriyyatının rəhbəri kimi Ermənistanın və onun havadarlarının iç üzünü tarixi sənədlərlə açıb göstərən nəşrlərin meydana çıxmasında əzmlə, peşəkarlıqla çalışır. Yazdığı bədii, elmi-publisistik əsərlərdə Ermənistan azərbaycanlılarının ən yeni tarixinin canlı şahidi olaraq çoxlarına, ya məlum olmayan, ya da az məlum olan ictimai-siyasi hadisələrin hərtərəfli (və obyektiv!) təhlilini verir.

Yaradıcı ruhunun - istedadının “ilk məhəbbəti” olan poeziyanın ilham pərisi isə Ermənistanda olduğu kimi, Azərbaycanda - Bakıda da Hidayəti heç zaman tərk etmir. Geniş oxucu kütləsinin diqqətini cəlb edən şeirləri, eləcə də kitabları nəşr olunur. Və 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülür.

1990-cı illərin əvvəllərindən etibarən Hidayət bədii yaradıcılığını davam etdirməklə yanaşı mühüm dövlət işlərinə irəli çəkilir. 1992-ci ildə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə Müşaviri təyin olunur. Yeddi ay sonra isə Azərbaycan Respublikasının Milli siyasət məsələləri üzrə Dövlət müşaviri olur.

Həmin yüksək dövlət vəzifələrində Hidayət Orucov özünün böyük təşkilatçılıq istedadını göstərir, ümummilli lider Heydər Əliyevin öndərliyilə Azərbaycanda gedən genişmiqyaslı milli dövlət quruculuğu prosesində fəal iştirak edir. Və 2004-cü ildə “Şöhrət” ordenilə təltif olunur.

Xalq şairi Nəriman Həsənzadə Hidayət haqqında özünəməxsus (və gözəl!) demişdir:

“Hidayət böyük sənətkarlara xas olan çoxşaxəli yaradıcılığı ilə ölkəmizin görkəmli ədəbi simalarından biri kimi, ictimai-siyasi xadimlərindən biri kimi tanınır və sevilir...

Hidayət bu millətin bəxtinə doğulanlardandır.

Öz taleyi ağır olsa da, xalqının, başqa xalqların taleyində mühüm rolu olub. Və indi də var, zaman onu tamam yeni ruhlu, yeni təfəkkür tərzinə malik, yeni tipli sənətkar kimi yetişdirdi. Böyük bir şəxsiyyətin (Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin - N.C.) yanında formalaşmışdır... Buna görə Hidayət başqa həmkarlarından, sözün geniş mənasında, seçilir. Şeirləri, publisistikası, tərcümələri, çıxışları, müsahibələri dediklərimi sübut edir.

Hidayətin şəxsində Azərbaycan ədəbiyyatı müstəqil Azərbaycan dövlətçiliyinə xidmət edir. Bu onun taleyi və şərəfli tərcümeyi-halıdır”.

Hidayət 2005-ci ildə Azərbaycan Respublikasının milli azlıqlar və dini qurumlarla iş üzrə Dövlət müşaviri, 2006-cı ildə isə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilir.

Əgər nəzərə alsaq ki, həmin yüksək vəzifələrə, yaxud ali dövlət idarəçilik strukturlarına rəhbərliyə təyin olunanda Hidayət Orucovun ilk missiyası bu vəzifə-strukturları formalaşdırmaq idi, o zaman onun nə qədər tarixi işlər gördüyünü təsəvvür etmək çətin deyil. O, Azərbaycanda milli siyasətin prinsiplərinin, milli azlıqlarla, dini qurumlarla işin normativlərinin müəyyənləşməsində heç zaman unudulmayacaq işlər görmüşdür.

Hidayət Orucov on il Azərbaycan Respublikasının qardaş Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri olmuşdur.

Xalq yazıçısı Anar Hidayətin istedadından, ağrı-acılarla, keşməkeşlərlə (və böyük uğurlarla!) zəngin tərcümeyi-halından, daxili mədəniyyətindən bəhs etdikdən sonra fikrini belə yekunlaşdırır:

“Tanrının verdiyi ömrü hamı onun müəyyənləşdirdiyi vədədə başa vurur. Lakin heç də hər bir insan həyatının hansısa məqamında arxada qalan ömrə, illərə, görülmüş işlərə, dəyişdirilməsi mümkün olmayan



əməllərə baxıb, Hidayət kimi özünəməxsus təvazökarlıqla deyə bilmir: bəli, mən yaşamışam...”

İlk şeirlərini hələ çox gənc yaşlarında - orta məktəbdə oxuduğu illərdə yazmış, “Nəyim var” adlı ilk şeiri isə 1963-cü ildə “Ədəbi Ermənistan” almanaxında dərc olunmuşdur.

“Məni səsləyəndə” ilk şeirlər kitabı (İrəvan, 1970) nəşr ediləndə Hidayət artıq ilhamlı (və məhsuldar) şair idi. 70-ci illərdə gənc şairin bir-birinin ardınca İrəvanda “Məhəbbət qocalmır”, “Bir az gözləyin məni”, Bakıda “Dənizi harayladım” şeir kitabları işıq üzü görür, rəhbərlik etdiyi teatrda “Məhəbbət yaşayır hələ...” pyesi tamaşaya qoyulur. Və həmin illərdə yazdığı “Bir teatrın üç aktyoru” kitabı Ermənistan Teatr Cəmiyyəti tərəfindən nəşr olunur.

Səksəninci illər yaradıcılığında poeziya yenə aparıcı olsa da, Hidayətin nəsr, dramaturgiya və publisistika sahəsində fəaliyyətinin genişləndiyi də diqqəti cəlb edir. “Eviniz analı olsun”, “Zirvə cığırı”, “Qatardan məktub” şeir kitabları ilə yanaşı, “İrəvanda xal qalmadı”, “Sabaha çox var” nəsr, dramaturgiya və publisistika kitabları nəşr olunur. İrəvan Dövlət Azərbaycan Dram Teatrında “Məni qınamayın” pyesi oynanılır ... Və Bakıya köçüb “Gənclik” nəşriyyatında rəhbərliyə başladıqdan sonra Hidayətin bir mühüm xidməti də ondan ibarət olur ki, həm Azərbaycan cəmiyyəti üçün zəruri ədəbiyyatın nəşrinə çalışır, həm də milli-ictimai şüuru səfərbər edəcək kitablar tərtib edir. İctimai-siyasi şərait mürəkkəb, əlverişsiz olsa da, “Gənclik” nəşriyyatı Hidayətin təşəbbüsü, eləcə də rəhbərliyilə “Dünya uşaq ədəbiyyatı kitabxanası” (50 cilddə), “Macəra və fantastika”, “SSRİ xalqları ədəbiyyatı”, “Azərbaycan folkloru” və s. kitabxana-seriyaları qısa bir müddətdə nəşr etdirməyə nail olmaqla Azərbaycan kitab mədəniyyətinə böyük töhfələr verir.

70, 80-ci illərdə olduğu kimi, 90-cı illərdə də, mürəkkəb tarixi şəraitdə yüksək dövlət vəzifələrində çalışmasına baxmayaraq, Hidayət bədii yaradıcılıqla ardıcıl, məhsuldar bir şəkildə məşğul olur. Və onun “Doxsanıncı il”, “Həsrət”, “Hərdən xatırla məni” şeir, “Sözün vaxtı” publisistika kitabları nəşr edilir, “Bu dünyanın adamları” pyesi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulur.

Müstəqillik illəri Hidayətin yaradıcılığına həm kəmiyyət, həm də keyfiyyət baxımından öz əhəmiyyətli təsirini göstərmiş, görkəmli ziyalı-ideoloqun, ictimai xadimin (və dövlət xadiminin) müxtəlif janrlardakı əsərləri mövzusunun aktuallığına, məzmun-mündərəcəsinə, yüksək vətənpərvərlik (və dövlətçilik!) ideallarına görə həmişə böyük maraq doğurmuşdur. Xüsusilə 2000-ci illərdə bir neçə dəfə (Azərbaycan dilindən başqa, ingilis, rus, ərəb, türk və gürcü dillərində) nəşr olunan “Heydər Əliyev və Azərbaycanda milli siyasət”, “İrəvana 7 məktub”, “Burdan min atlı keçdi”, “Qurucu Əziz”, “Azərbaycanda din. Ən qədim dövrdən bu günədək” və s. elmi, yaxud elmi-publisistik əsərləri buna misal ola bilər. Cəsarətlə demək olar ki, Hidayət müstəqilliyin ilk illərindən başlayaraq nəşr olunan publisistik kitabları ilə Azərbaycan publisistikasına, ümumən, ictimai fikrinə geniş tarixi təhlil miqyası ilə yanaşı, hadisələri həmin miqyas səviyyəsində ümumiləşdirmə üslubu (mədəniyyəti!) gətirdi. Və həmin illərdə bədii yaradıcılığında (əlbəttə, ilk növbədə, poeziyasında) publisistikliyin güclənməsi də öz tərcümeyi-halını mənsub olduğu xalqın tərcümeyi-halından (tarixindən!) heç zaman ayırmayan bir şair-ziyalı-ictimai xadim üçün tamamilə təbiidir. Ona görə də “Ömrümün çəhlimləri” şeir kitabında, “Sözün vaxtı” toplusunda və digər əsərlərində avtobioqrafik notların çoxluğu və ya bolluğu heç də təsadüfi deyil.

Akademik İsa Həbibbəyli tamamilə doğru olaraq göstərir ki, “vətəndaşlıq Hidayətin çoxcəhətli yaradıcılığının cövhəri, mahiyyətidir. O, yeni mərhələdə Azərbaycanda dərin ictimai məzmunlu vətəndaş poeziyasının, yüksək vətəndaşlıq ruhuna malik olan publisistikanın və səhnəyə həyat nəfəsi bəxş edən dramaturgiyanın əsas yaradıcılarından biri kimi böyük nüfuz qazanmışdır. Ciddi vətəndaşlıq mövqeyi və məsuliyyət şair, publisist və dramaturq Hidayəti bütün yönləri ilə tam şəkildə mənalandırır”.

Həmin sətirlərin müəllifi onu da əlavə edir ki, “Hidayətin sözü də, özü də təmənnasız, məsuliyyətdən yoğrulmuş şərəfli taleyini yaşamaqda davam edir”.

Hidayət bütün yaradıcılığı boyu dünya ədəbiyyatından çoxlu tərcümələr etmişdir ki, onların bir qismi “Özüm yazmaq istərdim” ikicildliyində toplanmışdır. Eyni zamanda, şairin əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuşdur.

Qafqaz xalqlarının Hidayətə - onun yaradıcılığına və şəxsiyyətinə hörmətini, məhəbbətini böyük Dağıstan şairi Rəsul Həmzətov belə ifadə edir:

“Hidayətin poeziyasıyla da, onun özüylə də hər görüş mənim qəlbimin milli bayramıdır”.

Hidayətin səkkizcildlik “Seçilmiş əsərləri”nin nəşri (2011-2012), heç şübhəsiz, müasir Azərbaycan ədəbi-ictimai mühitində mühüm hadisədir. Və səkkizcildlikdə müəllifin, demək olar ki, bütün çoxşaxəli yaradıcılığı (poeziyası, nəsri, dramaturgiyası, publisistikası və s.) əhatə olunmuşdur.

Və nəhayət, Hidayət haqqında danışarkən, bir məqama da diqqət vermək lazımdır ki, onun şəxsiyyəti, yaradıcılığı, ictimai fəaliyyəti barədə həm Azərbaycanda, həm də xaricdə görkəmli ədəbiyyat, elm, dövlət adamları maraqlı fikirlər söyləmişlər. Elə bilirik ki, akademik Budaq Budaqovun aşağıdakı sözləri həmin çoxsaylı fikirləri bu və ya digər dərəcədə ümumiləşdirir:

“Hidayət şairdir, nasirdir, dövlət xadimidir, ictimaiyyətçidir. Onun çoxsaylı və həm də sanballı bədii, poetik, eləcə də publisistik əsərləri geniş oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunur. Hidayət sakit təbiətli, mədəni bir ziyalıdır. Qayğıkeşlik onun varlığına hopduğundan o daim xeyirxahlıq etmiş, bir çox insanlara arxa olmuşdur.

Hidayətdə olan milli qeyrət onun bütün yazılarında, rəsmi və qeyri-rəsmi fəaliyyətində özünü göstərir...

Hidayət dəyərli vətəndaşdır, vətən oğludur”.

Şübhə etmirik ki, görkəmli ziyalı, sənətkar, mütəfəkkir bundan sonra da hələ neçə illər Azərbaycan ədəbiyyatını, Azərbaycan ictimai fikrini özünün dəyərli əsərlərilə zənginləşdirəcək, tükənməz yaradıcılıq enerjisilə mənsub olduğu Azərbaycan xalqına xidmət edəcəkdir.

***“Ədəbiyyat qəzeti” 02.09.2024***

# Qərbin planları işə düşür...

## Ermənistan müharibəyə hazırlaşır

Rəsmi İrəvan sülh sazişi imzalamamasının tərəfdarı olduğunu bəyan etsə də, gerçəkdə bunun əksi baş verir. Çünki son zamanlar Ermənistanda revanşist çağırışlar artmaqdadır. Sentyabrın 2-də İrəvanda Qarabağdakı separatçı rejimin “ildönümü”nün qeyd edilməsi və müharibə çağırışları da bunu deməyə əsas verir. Məsələnin diqqətçəkən məqamı ondadır ki, hökumət orqanları erməni separatizmini “yad edən” və Azərbaycana qarşı müharibə çağırışları edən revanşistlər haqqında heç bir ölçü götürməyib.

Görünən odur ki, erməni separatizminin ildönümünü qeyd edənlərin Qarabağı qaytarmaq, silahlanmanı gücləndirmək və digər məsələlər barədə rəsmi İrəvanın seyrçi mövqeyi həqiqətən də gizli mətləblərdən xəbər verir. Xüsusilə, hərbiləşmə siyasəti, Qərblə bu istiqamətdə sıx əməkdaşlıq Ermənistanın Azərbaycana qarşı müharibəyə hazırlaşması ehtimalını artırır. Rusiyanın təşəbbüsü ilə yaradılmış KTMT-nin üzvü olan Ermənistan nə qədər paradoksal olsa da, əks qütbün təmsilçiləri ilə hərbi əməkdaşlığı gücləndirir. ABŞ və Ermənistanın birgə hərbi təlim keçirməsi də bu baxımdan, diqqəti cəlb edir. Xatırladaq ki, 15-24 iyul tarixlərində Ermənistanda “Eagle Partner 2024” kod adlı ABŞ-Ermənistan birgə təlimləri keçirilib. Rəsmi məlumata görə, təlimlərin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələr arasında koordinasiyanın səviyyəsinin yüksəldilməsi, idarəetmə və kommunikasiya sahəsində təcrübə mübadiləsi və Ermənistan hərbçilərinin döyüş hazırlığının artırılmasıdır. Birgə hərbi təlimləri ABŞ-ın Ermənistandakı səfiri də izləyib.

### Qərb Ermənistanda hərbi mövcudluğunu gücləndirir

Əslində, bu, Ermənistanla ABŞ arasında ilk belə hərbi təlim deyildi. Ötən ilin sentyabrında da “Eagle Partner 2023” kod adlı ABŞ-Ermənistan birgə təlimləri keçirilmişdi. Erməni hərbi ekspert Leonid Nersisyan hesab edir ki, Ermənistanda keçirilən birgə hərbi təlimlər yalnız başlanğıcdır. Onun sözlərinə görə, hazırda Ermənistan ordusunun daha ciddi hərbi təlimlərə, məsələn, quru qoşunlarının təlimlərinə ehtiyacı var: “Söhbət təkcə hərbi təlimlər və ABŞ-la hərbi sahədə əməkdaşlıqdan getmir. Məsələn, artıq Amerika ordusunun nümayəndəsinin Ermənistanın Müdafiə Nazirliyində işləməsi ilə bağlı qərar var ki, bunu da çox mühüm sayıram”. Bir müddət öncə ABŞ Dövlət katibinin mülki təhlükəsizlik, demokratiya və insan haqları üzrə müavini Uzra Zeya da “Hetq” nəşrinə müsahibəsində ABŞ ordusunun nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyində çalışacağını təsdiqləyib. Bu yaxınlarda ABŞ hərbi təyyarəsinin Ermənistana silah daşıması da deyilənləri təsdiqləyir.

Eyni zamanda, Fransa Ermənistanı fəal şəkildə silahlandırır. Bu ölkə də Ermənistan vasitəsilə Cənubi Qafqazda öz maraqlarını təmin etməyə çalışır. Parisin məqsədi regionda yeni müharibə alovlandırmaqdır. Fransa ilə yanaşı, Hindistan da Ermənistana silah satışını davam etdirir. Təsadüfi deyil ki, Ermənistan ordusunun hərbi qulluqçuları ABŞ-la birgə təlimlər zamanı Hindistan istehsalı olan dəbilqəyə quraşdırılan termal görüntülü monokulyardan istifadə ediblər. Hindistanın “Tonbo Imaging” şirkətinin istehsalı olan bu avadanlıqlar Ermənistan ordusunda əvvəllər mövcud olmayıb.



### Sarkisyandan revanşist çağırışlar

Ümumiyyətlə, məsələnin görünməyən tərəfi bütün region üçün narahatlıq doğuran perspektivlərlə bağlıdır. Burada bir sıra məqamlara diqqət yetirmək lazım gəlir. Məğlub Ermənistanda baş qaldıran revanşizmin birgə hərbi təlimlərin baş tutmasına səbəb olan əsas amillərdən biri kimi qeyd edə bilərik. Sülh prosesinin müəyyən qədər irəlilədiyi bir ərəfədə Ermənistanda revanşizm mövqeyindən çıxış edən qüvvələr fəallıqlarını artırıblar. Məsələn, Ermənistanın keçmiş prezidenti, Xocalı soyqırımının təşkilatçılarından biri olan Serj Sarkisyan Qarabağda separatçı erməni rejiminin ildönümü ilə bağlı “müraciət”ində deyib: “”Artsax” məsələsi beynəlxalq münasibətlərin gündəliyinə qayıtmalıdır. Kifayət qədər səy, məqsədyönlü iş, bütün mümkün üsullardan istifadə etməklə, uğur qazana bilərik. Təbii ki, bu məsələdə ilk növbədə dövlət səviyyəsində və milli maraqların müdafiəsi mövqeyindən maraqlı işlər görülməlidir ki, bunun üçün belə bir anlayışa malik hökumətin olması vacibdir”.

Təbii ki, revanşistlərin mövqeyi məlumdur. Lakin paralel şəkildə bu ölkədə hakimiyyətin də mövqeyinin sürüşkən olduğu sezilir. Digər məqam xəyanətkar xislətli Paşinyanın Rusiyadan qopmaq, Qərbə yaxınlaşmaq istəyini özündə ehtiva edir. İndiyədək Ermənistan Rusiyadan hərtərəfli şəkildə asılı olub. Bu ölkə mövcudluğuna görə məhz Rusiyaya borcludur. Bəs, Ermənistanın minnətdarlığı nədən ibarətdir? - Xəyanətdən. Deyə bilərik ki, bu ölkədə siyasi oriyentasiyanın dəyişməsi dövlət siyasəti səviyyəsinə yüksəldilib. Hazırda məlum səbəblərdən Rusiyanın başı müharibəyə qarışıb. Ermənistan isə öz ənənəvi xislətinə uyğun olaraq tabeçilik ünvanını dəyişməyə, hazırda ona istədiyi qədər yardım, dəstək göstərməyən Rusiyadan qopmağa cəhdlər edir. Eyni zamanda, hazırda N.Paşinyan Rusiyanı öz hakimiyyəti üçün ən böyük təhlükə sayır.

### İrəvan 44 günlük müharibənin nəticələrini unutmamalıdır

Başqa bir mühüm məqam isə Ermənistanın istəyi ilə Qərbin Cənubi Qafqaz siyasətinin üst-üstə düşməsi ilə bağlıdır. Cənubi Qafqazda Rusiyanı əvəzləmək və burada möhkəmlənmək Qərbin çoxdankı planlarına daxildir. Qərb dairələri Rusiyanın geostrateji mövqeyinin çətinləşdiyi, həmçinin N.Paşinyan iqtidarının sürüşkənliyi fonunda əzəli planlarının reallaşdırılması üçün ən uyğun zaman yetişdiyini düşünür.

Lakin Ermənistan anlamalıdır ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrin suverenliyinin və ərazi bütövlüyünün tanınmasıdır. Eyni zamanda, həmin şərtlərə əməl etməklə münasibətlər qurulmalı və bu istiqamətdə təhlükə yaradan çağırışlar aradan qaldırılmalıdır. Rəsmi İrəvan həqiqətən sülhün tərəfdarıdırsa, əməli fəaliyyəti ilə bunu nümayiş etdirməlidir. Əks halda, revanşizmin artması, silahlanmanın davam etməsi və müharibəyə cəhd Ermənistanın özü üçün ciddi problemlər yaradacaq. Ən azı 44 günlük Vətən müharibəsinin və Qarabağda bir günlük anti-terror tədbirlərinin nəticələri unudulmamalıdır!

**Nardar BAYRAMLI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Həqiqət carçısı!

Cəmiyyətdə cərəyan edən proseslər və həqiqətlər barədə mətbuat sayəsində müntəzəm informasiyalar əldə edirik. Kütləvi İnformasiya Vasitələri (KİV) müəyyən hadisələr haqqında məlumat çatdırmaqla yanaşı, həmin hadisələrin də mahiyyətini açıb ortaya qoyur. Bəzi məsələlər təhlil olunur və reallığın nədən ibarət olduğu açıqlanır ki, cəmiyyət üçün bunun da önəmi olduqca böyükdür.

Söz və mətbuat azadlığı bir çox hallarda cəmiyyətdə demokratiyanın meyarı, ölçüsü rolunu oynayır. Söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqları da tez-tez pozulur. Məhz bu səbəbdən bir çox mötəbər beynəlxalq qurumlar və demokratiyanın inkişafına xidmət edən təsisatlar müxtəlif ölkələrdə söz və mətbuat azadlığını daim diqqət mərkəzində saxlayırlar.

**Haqq carçıları sözün məhkum olmasına imkan vermədilər**

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli bildirib ki, KİV-lər hər bir ölkədə ictimai fikri formalaşdıran bir institutdur. Bu baxımdan bəzən “media” adlandırılan KİV cəmiyyətdə böyük təsir gücünə malikdir.

Professorun sözlərinə görə, KİV-lər həmçinin xalqın milli nümayəndəliyini öhdəsinə götürən, onun görüşlərini ifadə edib yayan ictimai nəzarətçidir: “Buna görə də, müstəqil dövlətlər yerli mətbuata xüsusi önəm verir. Azərbaycanın siyasi həyatında sözün azadlığı uğrunda mücadilələr müxtəlif tarixi mərhələlərdən adlayıb keçib. Mətbuat, onun əsas silahı olan söz də, azad düşüncə də həqiqi azadlığa, sözün əsl mənasında yalnız 20-ci əsrin sonlarında qovuşdu. Azərbaycanın, xalqın azadlıq savaşında cəmiyyətin bütün zümrələrini səfərbər edib mübarizəyə qaldıran ilklər də elə söz fədailəri oldular. Xalqın tarixinin qərinələrindən gələn azadlıq və müstəqillik arzuları sözün qüdrəti ilə mücadilə bayrağına, ən kəskin silaha çevrildi. Dünənə qədər sözü azadlıqdan məhrum edən imperiya qulları ölkədən qovulandan, müstəqilliyin ilk qələbələri, azadlığın ilk müjdələri gələndən sonra hakimiyyət başına keçənlər yenidən sözə həbs cəzası kəsmək istədilər.



Haqqın carçıları sözün qüdrətilə azadlıq qazandıqları ölkədə döyüldülər, təhqir olundular, amma sözün məhbəsə, məhkum olmasına imkan vermədilər. Mübarizə dayanmadı, sözün azadlıq savaşı bitmədi”.

**Söz azadlığının bərqərar olması davamlı prosesdir**

C.Məmmədli qeyd edib ki, azad ölkədə azad sözün qüdrətini və dəyərini bilən söz sahibi xalqın sözünü eşidib, tələbini qəbul edib hakimiyyətə gəldi: “Gəldi ki, Azərbaycanı yenidən boyunduruğa salıb imperiya köləsinə çevirməsinlər. Gəldi ki, müstəqil Azərbaycanda demokratiyanın bərqərar olması üçün sözün azadlığına birdəfəlik hökm versin...

1993-cü ildə hakimiyyətə yenicə qayıtmış Heydər Əliyev yaxşı başa düşürdü ki, totalitar bir quruluşdan yenicə qopub demokratiyaya keçid edən bir ölkədə mətbuat hələ “dördüncü hakimiyyət” rolunu oynamağa hazır deyil. Ona görə də gənc demokratik ölkədə mətbuatı azad bir müstəviyə çıxarmaq əsas vəzifələrdən biri kimi irəli sürüldü

Zaman göstərdi ki, söz və mətbuat azadlığının bərqərar olması davamlı prosesdir və Prezident İlham Əliyev Heydər Əliyevdən sonra bu təkmilləşdirmə prosesinin estafetini uğurla davam etdirməyə başladı. Ümummilli liderin demokratik dövlətçilik strategiyasının prioritetlərindən biri kimi söz və mətbuat azadlığının, KİV-in inkişafına xüsusi qayğı ilə yanaşan İlham Əliyev bunun bir mühüm məqamının da iqtisadi sferadan keçdiyini bildiyi üçün onun ilk addımlarından biri məhz qəzetlərin “Azərbaycan” nəşriyyatına olan borclarının silinməsi barədə sərəncamı oldu. 2005-ci ildə “Əməkdar jurnalist” adı bərpa olundu və bir qrup jurnalist bu fəxri ada layiq görüldü və bundan sonra jurnalistlərin təltif olunması ənənəyə çevrildi. Söz və mətbuat azadlığı dedikdə, zənnimcə, ilk növbədə məsuliyyət hissi əsas amil kimi nəzərə alınmalıdır. Çünki söz azadlığı, mətbuat azadlığı o demək deyil ki, hər kəs istədiyini yaza, istədiyi fikri bildirə bilər. Təbii ki, təkcə mətbuat orqanları, KİV nümayəndələri yox, hər birimiz azərbaycanlı olaraq, məsuliyyət hissini unutmamalı və bu hissdən çıxış edərək, hərəkət etməliyik”.



## Söz azadlığı demokratiyanın meyarı və ölçüsüdür...

*Yeganə BAYRAMOVA*

# Türkiyə Konstitusiya dəyişikliyi yolunda...

**Qardaş Türkiyədə Konstitusiyanın dəyişdirilməsi məsələsi zaman-zaman gündəmə gəlir. Ancaq bu məsələ hər dəfə müxtəlif səbəblərdən ertələnir. Xatırladaq ki, hakim Ədalət və İnkişaf Partiyası hələ 2021-ci ildə ölkənin yeni Konstitusiyasının layihəsini hazırlayıb təqdim etmişdi. Lakin siyasi partiyalar arasında Əsas Qanunun - Ana Yasasının dəyişdirilməsi ilə bağlı konsensus əldə olunmadı. Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində yeni Konstitusiyanın qəbuluna mane olan əsas məqamı açıqlayıb. Dövlət başçısı bu barədə Ali Apellyasiya Məhkəməsinin sədrliyi yanında keçirilən “2024-2025-ci Məhkəmə ilinin açılış mərasimi”ndə çıxışında danışıb. O bildirib ki, yeni Konstitusiyaya ehtiyac var. “İnanıram ki, bu prosesin öhdəsindən gələ biləcəyik. Hazırda yeni Konstitusiyanın qəbuluna mane olan əsas məsələ qərəzdir. Müxalifət bu prosesə mane olur. Türkiyə demokratiyası yeni konstitusiyanın qəbulunu təmin edə bilər”, - deyə dövlət başçısı vurğulayıb.**

## Hazırda qüvvədə olan “çevriliş Konstitusiyası”

Türkiyə Prezidenti yeni Konstitusiyanın ağlabatan və hər kəsin ürəyincə olacağını da bildirib. Hazırda qüvvədə olan Ana Yasanı “çevriliş məhsulu” kimi səciyyələndirn dövlət başçısı vurğulayıb: “Türkiyədə çevrilişin məhsulu olan mövcud konstitusiyadan azad edilmənin vaxtının gəldiyi qənaətindəyik. Ağlabatan müddət, proqnozlaşdırıla bilən və həll mərkəzli ədalət bizim prioritetimiz olacaq. Ölkəmizi heç bir ayrı-seçkilik etmədən gələcəyə daşıyacaq Konstitusiyanı partiya olaraq, xalq ittifaqı olaraq bu mövzuda səmimiyik”.

Qardaş Türkiyənin hazırda qüvvədə olan Konstitusiyası 7 noyabr 1982-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən ən yüksək normativ hüquqi aktır. Onun layihəsi 12 sentyabr hərbi çevrilişindən sonra hərbi rəhbərliyin əmri ilə Məşvərət Məclisi tərəfindən hazırlanıb və 23 sentyabr 1982-ci ildə Məşvərət Məclisi, 18 oktyabr 1982-ci ildə isə Milli Təhlükəsizlik Şurası tərəfindən qəbul edilib. Bundan sonra ölkədə referendum keçirilib. Yeni Ana Yasa referendum nəticəsində 91,37 faiz lehinə olmaqla qəbul olunub.

Türkiyə Konstitusiyanın ilk üç maddəsinin dəyişdirilməsi və onlara dəyişiklik təklif edilməsi dördüncü maddə ilə qadağan olunur. Türkiyə Konstitusiyasına 1987-ci, 2007-ci, 2010-cu, 2017-ci illərdə dəyişiklik edilib. Konstitusiyada 7 bölmə, 177 maddə və 16 müvəqqəti maddə var. 1980-ci il hərbi çevrilişinin əsas səbəbi olaraq dövlətin zəifliyi göstərildiyi üçün tərtib edilən yeni Konstitusiyanın əsas məqsədi dövləti gücləndirmək, onu müxalifətdən qorumaq olmuşdu. Hərbi çevrilişin təşkilatçılarının qurduğu Məşvərət Məclisi ilə hazırlanmış olan yeni Konstitusiyaya “Milli Güvenlik Konseyi” tərəfindən bəzi dəyişikliklər edilərək, hazır vəziyyətə gətirilmişdi. 1982-ci il Konstitusiyası, əsasən, 12 sentyabr 1980-ci il tarixindən əvvəl ortaya çıxan problemləri aradan qaldırmaq və qanunların icrası zamanı yaranan narahatlıqlara son vermək üçün hazırlanmış əsas hüquqi aktdır. O dövrdə əsas çağırışlardan biri dövlətin gücləndirilməsi ilə bağlı idi. Ana Yasada bu məqama xüsusi diqqət çəkiulib. Belə ki, Əsas Qanunda dövlətin güclənməsi onun icraedici gücü ilə əlaqələndirilmiş, hətta dövlətin fövqəladə hallarda Konstitusiyaya zidd qanunlar qəbul etməsinə belə icazə verilib. İcraedici orqanların qərarlarına mühakimə orqanı nə qədər nəzarət etsə də, hökumətin hətta insan hüquqlarına qarşı olan qərarlar qəbul etməsinə də şərait yaradılıb. Reallıqda da biz bunun şahidi oluruq. Bir sıra hallarda ali icraedici qurumun verdiyi qərarlar və atdığı zəruri addımlar Konstitusiyanın müddəalarının fövqündə dayanır. Əlbəttə, belə hallar kütləvi xarakter daşımır, zəruri hallar olaraq istisnalıq təşkil edir.



## Türkiyənin demokratiya hədəfi

Qardaş ölkədə bəzi müxalifət partiyalarının Konstitusiya dəyişikliyinin indiki hakim komandanın öz mövqelərini gücləndirmək məqsədilə gündəmə gətirildiyi fikri qəbuledilməzdir. Bu gün Türkiyədə Prezident Ərdoğana və onun komandasına böyük inam var. Bunu Türkiyədə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə baş verən dövlət çevirilişi cəhdinin baş tutmaması əyani şəkildə təsdiqlədi. Türkiyənin qan yaddaşına əbədi olaraq həkk olunmuş həmin gecədə baş verənlər ölkəninin milli maraqlarına, demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi. İslamofob dairələr tərəfindən istiqamətləndirilən və tamamilə siyasiləşmiş FETÖ-nün məlum terror hadisələrini törətməkdə məqsədi radikal şəriət qanunları ilə idarə olunan dövlət qurmaq olub. Mənfur dövlət çevrilişinin planlarını hazırlayanların əsas məqsədlərindən biri Türkiyəni lidersizləşdirmək, Rəcəb Tayyib Ərdoğanı fiziki cəhətdən məhv etmək idi. Bacarmadılar. Elə terror aktının qısa müddətdə dəf edilməsində əsas amillərdən biri qismində də Rəcəb Tayyib Ərdoğanın liderliyi çıxış etdi. Milyonlarla insan dövləti xilas etmək, Prezident R.T.Ərdoğanla həmrəylik nümayiş etdirmək üçün ayağa qalxdı. Bu böyük gücün qarşısında FETÖ, ona himayədarlıq edən qüvvələr dayana bilmədilər və məğlubiyyətə uğradılar.

Son 20 ildə Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük inkişaf yolu keçib. Bu gün qardaş olkə regional liderlikdən çıxaraq qlobal aktora çevrilib, ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb. Qardaş ölkə dünya üzrə bir sıra münaqişələrin həllinə özünün ədalətli yanaşmaları ilə sanballı töhfələrini verib ki, bunun da arxasında həm də güc amili dayanır. Çatılan hədəflər, hazırkı inkişaf mərhələsi yeni çağırışlar diktə edir. Lakin Əsas Qanundakı bəzi məhdudiyyətlər bu çağırşları qarşılamağa imkan vermir. Hakim komandanın bəyan etdiyi kimi, Türkiyənin bundan sonrakı yolu demokratiya və qanunun aliliyi yoludur. Son prezident seçkilərində qardaş ölkə dünyaya bir demokratiya dərsi verdi. Müasir Türkiyənin demokratik imici Konstitusiya qaydasında da möhkəm şəkildə təsbit edilməlidir. Qeyd etdiyimiz kimi, mövcud Ana Yasa “çevriliş Konstitusiyası”dır. Konstitusiya islahatları aparmaq istəyən Ərdoğan iqtidarı ölkədə çevrilişlər səhifəsini bağlamaq niyyətindədir. Yeni qəbul olunacaq Konstitusiyada bu mühüm müddəa qırmızı xətt kimi keçəcək və Türkiyə dünyaya müasir, demokratik dövlət kimi təqdim olunacaq.

*MÜBARİZ*

# Minsk qrupunun ləğvi: De - faktodan de -yureyə

**Postmüharibə dövründə Cənubi Qafqaz regionunda uzunmüddətli sabitlik, təhlükəsizlik və əməkdaşlıq arxitekturasının qurulması üçün Azərbaycanla Ermənistan arasında etibarlı sülhün təmin olunması zəruridir. Sülhə nail olunması üçün isə tərəflər tənzimləmə prosesinə sözdə deyil, real müstəvidə sadiqlik göstərməli və bir sıra zəruri şərtlər təmin olunmalıdır ki, bunlardan biri də artıq ölü quruma çevrilən Minsk qrupunun de-yure ləğv edilməsi ilə bağlıdır. Prezident İlham Əliyev bu şərti irəli sürərkən sırf postmüharibə dövrünün reallığından çıxış edib. Bu barədə dövlətimizin başçısı sonuncu dəfə avqustun 30-da Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən danışıb.**

## Azərbaycanın iki mühüm şərtindən biri

Davamlı olaraq qarşı tərəfə sülh çağırışlarını çatdıran qalib Azərbaycan tənzimləmə prosesinin irəli aparılması üçün iki vazkeçilməz şərt irəli sürür. Ölkəmizin birinci əsaslı şərti belədir: Sülh sazişinin imzalanması üçün bütün fundamental amillər təmin olunmalı, o cümlədən hüquqi boşluqlar tamamilə aradan qaldırılmalıdır. Bu gün sülhə gedən yolda ən böyük maneə məhz Ermənistanın konstitusiyası və bir sıra digər qanunvericilik aktlarıdır. Həmin sənədlərdə qonşu dövətin Azərbaycana qarşı ərazi iddiaları açıq-aşkar legitimləşdirilib. Belə ki, konstitusiyanın preampula hissəsində müstəqillik bəyannaməsinə istinad olunur. Həmin bəyannamədə isə Azərbaycanın keçmiş Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirlməsini özündə ehtiva edən müddalar yer alır. Belə olan halda hansı sülh prosesindən danışmaq mümkündür? Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən müddəalar çıxarılmadan hər hansı bir sülh sazişinin imzalanması mümkü deyil. Çünki hüquqi əsaslar yaradılmayan sülh qalıcı sülh olmayacaq.

Qayd etdiyimiz kimi, Azərbaycanın ikinci vazkeçilməz şərti Minsk qrupunun de-yure ləğvi ilə bağlıdır. Azərbaycan reallıqdan çıxış edərək Ermənistana artıq ölü quruma çevrilmiş Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlamağa çağırış edir. Ermənistan isə müxtəlif bəhanələr gətirməklə bunu etməyə tələsmir. Postmüharibə dövründə de-fakto mövcud olmayan Minsk Qrupunun de-yure ləğvini şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Əvvəla, Minsk Qrupu zamanında keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məqsədilə yaradılmışdı. 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq artıq münaqişə həllini tapıb. Bununla Azərbaycan BMT-nin məlum qətnamələrinin icrasını öz gücünə təmin etdi. Artıq münaqişə keçmişdirsə, Minsk qrupunun fəaliyyətinə hansısa bir lüzum varmı? Digər tərəfdən, Minsk qrupunda təmsil olunan dövlətlərin vəziyyətinə baxaq. Bu gün kəskin qarşıdurmalar yaşayan Rusiyanın, ABŞ-nin və Fransanın eyni masa arxasında əyləşməsi praktiki cəhətdən mümkün deyil. Əgər onlar hansısa bir barışıq reseptinə malikdirlərsə, ilk növbədə bunu öz aralarındakı ixtilafların çözülməsində tətbiq etməlidirlər.

Beləliklə, hər cəhətdən ömrünü başa vurmuş bir quruma süni nəfəs verməyin heç bir faydası yoxdur. Minsk qrupunun ləğv edilməsi proseslərin təbii axarında meydana çıxan



zərurətdir. Ermənistanın Azərbaycanın qurumun ləğv olunması ilə bağlı ATƏT-ə birgə müraciət etməklə bağlı çağırışından yayınmasının bir izahı var - məğlub ölkə reallıqda sülh istəmir və yenə də manipulyasiyalara əl atır. Bəhs olunan görüşdə Prezident İlham Əliyev regional vəziyyətə toxunaraq bildirib ki, Azərbaycan bölgədə davamlı sülhün təmin olunmasının tərəfdarıdır. Dövlətimizin başçısı vurğulayıb ki, bunun üçün özünün artıq dəfələrlə qeyd etdiyi kimi, Ermənistan konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və konstitusiya dəyişdirilməlidir. Azərbaycan Prezidenti vurğulayıb ki, artıq keçmişin qalığı olan ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan təsisatlar tamamilə ləğv edilməlidir. Dövlətimizin başçısı Minsk qrupunun ləğv edilməməsi ilə bağlı Ermənistanın mövqeyinin heç bir halda başadüşülən olmadığını deyib. Çünki əgər münaqişə keçmişdə qalıbsa və Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ifadə edirsə, onda keçmişin qalığı olan Minsk qrupunun saxlanmasına nə ehtiyac var?! Dövlətimizin başçısı deyib ki, görünür, Ermənistan sülh müqaviləsində və regionda davamlı sülhün əldə edilməsində maraqlı deyil. Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan qəsdən vaxt uzadır, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir.

## Fransanın, ABŞ-nin qərəzli mövqeyi

Keçmiş Minsk qrupunun de-yure də ləğvinin zəruriliyindən bəhs edərkən burada təmsil olunan iki dövlətin - Fransanın və ABŞ-nin tənzimləmə prosesində təəssüf doğuran qərəzli rol almalarını da xüsusi qeyd etməliyik. Minsk qrupunun üzvləri olan bu iki dövlət açıq-aşkar Ermənistanın dəstəklənməsi mövqeyindən çıxış edir. Xatırlayaq ki, işğal dövründə Minsk qrupu öz işini təcəvüzkar Ermənistanla torpaq itkilərinə məruz qalan Azərbaycan arasında bərabərlik işarəsi qoymaqla bitmiş hesab edirdi. Beləcə, münaqişə üç onillik ərzində həllini tapmadı.

Fransa və ABŞ eyni siyasəti postmüharibə dövründə də davam etdirirlər. Bu gün hər iki dövlət məğlub ölkədə revanşizmi alovlandırır və Ermənistanı yeni müharibəyə təhrik edir. Ağ Ev, Yelisey Sarayı dünyanın gözü qarşısında işğalçı dövlətə öldürücü silahlar tədarük edir və bunu hansısa arqumentlərlə əsaslandırmağa çalışırlar. Dünya praktikasında işğalçı dövlətlərə qarşı sərt cəza tədbirləri görülür. Ermənistan niyə istisnalıq təşkil etməlidir? Münaqişə tərəflərindən birinə açıq-aşkar siyasi və hərbi dəstək göstərən dövlətlərin Minsk qrupu daxilində ədalətlə vasitəçilik edəcəklərinə necə inanmaq olar?

*Mübariz FEYİZLİ*

# Girovların öldürülməsi...

## Yaxın Şərqdə gərginliyi daha da artırıb

**Yaxın Şərqdə vəziyyət gərgin olaraq qalır. Qəzza bölgəsində baş verənlər İsrail ilə Fələstin arasında uzun illərdir davam edən ədavətin bitməsi üçün indiyədək görülən bütün işlərin fiaskoya uğradığını göstərir. Xatırladaq ki, ötən il oktyabrın 7-də HƏMAS qruplaşması İsrailin nəzarətində olan ərazilərə hücum edib. Buna cavab olaraq İsrail ordusu Qəzzada hərbi əməliyyatlara başlayıb. Son vaxtlar isə ABŞ Prezidenti Cozef Bayden Qəzza sektorunda atəşkəs razılaşması ilə bağlı təkliflə çıxış edib. Tərəflər bu təklifi müzakirə etməkdədir. Bir sıra dövlətlər də bölgədə atəşkəsin elan olunmasına, tərəfləri sülhə gəlməyə çağırır. Türkiyə, regiondakı ölkələr, xüsusilə, Qətər, Misir və Səudiyyə Ərəbistanı sabitliyin bərpası üçün müxtəlif təşəbbüslərlə çıxış edir. Bir neçə gün öncə danışıqların növbəti mərhələsi baş tutsa da, ortada müsbət nəticə yoxdur.**

### Qarşılıqlı ittihamlar...

Belə bir şəraitdə isə HƏMAS tərəfindən girov götürülən 6 İsrail vətəndaşının cəsədinin aşkar olunması vəziyyəti daha da gərginləşdirib. HƏMAS iddia edib ki, girovlar onların saxlandığı tunellərə İsrail ordusunun zərbələri nəticəsində ölüb. Lakin rəsmi Təl-Əviv bununla razılaşmır. İsrailin Baş naziri Benyamin Netanyahu bəyan edib ki, HƏMAS girovları öldürdüyü üçün ağır bədəl ödəyəcək: "İsrail HƏMAS hərəkatından olan fələstinli radikalları sentyabrın 1-də Qəzzada öldürülən altı girovun qətlinə görə ağır bədəl ödəməyə məcbur edəcək. İsrail sakitləşməyəcək və bu qətli unutmayacaq". Baş nazir həlak olanların ailələrinə başsağlığı verib, baş verənlərdən dərin təəssüf hissi keçirdiyini bildirib və İsrailin varlığı uğrunda mübarizə apardığını, bu səbəbdən ölkənin birliyini qorumalı olduğunu vurğulayıb. "Onları sağ qaytara bilmədiyim üçün üzr istəyirəm. Biz buna çox yaxın idik, amma bacarmadıq" , - deyə Netanyahu əlavə edib.





### İsraildə etiraz aksiyaları

Lakin Qəzza zolağında altı girovun HƏMAS tərəfindən öldürülməsinə dair xəbər İsraildə etiraz aksiyalarının keçirilməsinə təkan verib. Çünki ölkədə Baş nazir Benyamin Netanyahuya müxalif qüvvələr əvvəllər də müharibənin gedişinə qarşı çıxış etmişdilər. Xarici KİV-lərin yaydığı məlumatlara əsasən, sentyabrın 1-də İsrailin paytaxtı Təl-Əvivdə 120 mindən çox vətəndaşın iştirakı ilə mitinq keçirilib. Etirazçılar girov götürülənlərin ailə üzvləri ilə həmrəy olduqlarını bildirərək İsrail hökumətindən Qəzza zolağında saxlanılan bütün israillilərin sərbəst buraxılması çərçivəsində HƏMAS-la razılıq əldə edilməsini istəyirlər. Mitinqdə meydana qətlə yetirilən məlum altı girovun İsrail bayrağı ilə örtülən simvollaşdırılmış tabutu qoyulub. Səhnədən isə HƏMAS-ın girovluğunda olan israillilərin adları səsləndirilib. Girovların ailələri Baş nazir Benyamin Netanyahunu günahlandıraraq bildiriblər ki, o, Qəzza-Misir sərhədindəki Filadelfiya dəhlizini əldə saxlamaqda israr edir və bununla da girovların mübadiləsi razılaşmasına qarşı çıxır. Hökumət başçısı isə qalan girovların sərbəst buraxılma üçün anlaşma əldə olunmamasında HƏMAS-ı ittiham edir.

Mitinqdə ölkə üzrə tətil çağırışları da edilib. Təl-Əvivdə keçirilən aksiyada Ümumisrail Həmkarlar Təşkilatının başçısı Arnon Bar-David isə bildirib ki, tətil elan edib ölkə iqtisadiyyatını iflic etmək elə sadə məsələ deyil. Bununla yanaşı tətilin də qaçılmaz olduğunu vurğulayıb. Sentyabrın 2-də həmkarlar federasiyası ümumi tətil elan edib. Federasiyaya üzv olan heç də bütün qurumlar bu aksiyaya qoşulmayıb. Bununla belə həmkarlar təşkilatına daxil olmayan özəl sektorun təmsilçiləri aksiyaya qoşulduqlarını bildirib.

### Böyük Britaniya İsrailə silah satışını niyə dayandırıb?

Baş verənlər Yaxın Şərq regionunda atəşkəs razılaşmasına inamı azaldır. Ona görə də, İsrail yeni imkanlar axtarışındadır. Xatırladaq ki, İsrailin Baş naziri Benyamin Netanyahu son səfəri zamanı Vaşinqtona Yaxın Şərqdə NATO-ya bənzər təşkilat yaratmağı təklif etmişdi. Konqresdə çıxışı zamanı Netanyahu bildirmişdi ki, ABŞ və İsrail Yaxın Şərqdə təhlükəsizlik alyansı yarada bilər. Netanyahu xatırladıb ki, İkinci Dünya müharibəsindən sonra ABŞ artan sovet təhlükəsinə qarşı çıxmaq üçün Avropada təhlükəsizlik ittifaqı yaratmışdı: "İsraillə sülh içində olan və gələcəkdə sülh içində olacaq bütün ölkələr bu alyansa dəvət olunacaqlar". Rəsmi Vaşinqtonun isə bu təklifə münasibəti hələ də məlum deyil.

Yaxın Şərqdə artan gərginlik fonunda Böyük Britaniya maraqlı addım atıb. Belə ki, Böyük Britaniya İsrailə bəzi silahların satışını dayandırıb. Bu barədə Britaniyanın xarici işlər naziri Devid Lammi parlamentin İcmalar Palatasında çıxışında deyib. O bildirib ki, qərar Böyük Britaniyanın silah ixracı lisenziyalarının nəzərdən keçirilməsindən sonra verilib və bu lisenziyaların beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulması riski yaratması müəyyən edilib. Nazir təxminən 350 lisenziyadan 30-nun dayandırılacağını açıqlayıb və vurğulayıb ki, bu, ümumi qadağa və ya silah embarqosu deyil: "Belə bir münaqişə ilə üzləşərkən, ixrac lisenziyalarını yenidən nəzərdən keçirmək Böyük Britaniya hökumətinin hüquqi öhdəliyidir. Təəssüf ki, bu gün aldığım qiymətləndirməyə əsasən, İsrailə bəzi Böyük Britaniya silahlarının ixracı beynəlxalq humanitar hüququn ciddi pozulması riskini daşıyır", - deyə nazir deyib. Qeyd edək ki, Böyük Britaniya İsrailə birbaşa silah tədarük etmir, lakin yerli şirkətlərin silah satması üçün ixrac lisenziyaları verir.

Xatırladaq ki, Yaxın Şərqdə artan gərginlik fonunda Roma Papası və BMT-nin Baş katibi də tərəfləri sülhə çağırıb. Hələ ki, bu çağırışların heç bir nəticəsi yoxdur, regionda qanlı toqquşma davam edir.

*N.BAYRAMLI*

# Təbiətin "qapımızı döyən" xəbərdarlığı....



## Tozlu havanın yaratdığı fəsadlar

Son günlər havada tozlu duman müşahidə edilir.Bəzən qızmar günəş şüalarının ətrafa saçdığı istilik insanları yay mövsümündən usandırır. Havanın azca soyuması, mehin əsməsi isti sevməyən adamlara xoşbəxtlik bəxş edir. Lakin küləyin bir o qədər də özü ilə gətirdiyi toz axını diskomfort yaradır. İnsan orqanizminə öz mənfi təsirini göstərir. Xüsusilə də toza qarşı həssas olan allergik, bronxit xəstələr havanın fəsadları ilə mübarizə aparırlar.

Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasovanın "Yeni Azərbaycan " a verdiyi məlumata görə, avtomatik stansiyalardan əldə olunan məlumata əsasən, havada tozun miqdarı artıb və hazırda normadan 4-4.5 dəfə yüksəkdir.

"Havada müşahidə olunan toz meteoroloji şəraitlə əlaqədar transsərhəd xarakterlidir və Türkmənistan ərazisindən ölkəmizə daxil olub. Tozlu hava şəraitinin meteoroloji vəziyyətdən asılı olaraq yaxın iki gün ərzində davam edəcəyi gözlənilir".

**Tozlu havanın yaratdığı xəstəliklər...**

Tozlu hava şəraitinin insan orqanizminə təsirindən danışan terapevt Vəfa Əhmədovanın sözlərinə görə, küləkli havada tozun miqdarı çoxalır, bu da ilk növbədə göz və tənəffüs yollarında olan problemlərin daha ciddiləşməsinə səbəb olur: "Toz əsasən obstruktiv bronxit xəstəliyini yaradır ki, bunun da yaranması üçün tozu uzun müddət qəbul etmək lazımdır. Külək və küləyin qaldırdığı toz hər zaman ziyanlıdır. Çünki toz olan yerdə insan nəfəs aldığı zaman təbii ki, ağciyərlərdə müxtəlif xəstəliklər yarana bilər. Amma o xəstəliklərin yaranmasında insan orqanizmindən də çox şey asılıdır.

Həkimin fikrincə, havada toz dumanının artması ən çox tənəffüs sistemi xəstəlikləri olan, nəfəsalma problemləri yaşayan, allergik xəstəliklərdən əziyyət çəkən insanlara təsir edir:

"Axır vaxtlar allergik xəstələrin sayı artıb. Ola bilər ki, havada toz miqdarının artmasının da buna təsiri var. Havada tozun miqdarının artması qeyd etdiyim problemləri olmayan adamlara da təsirsiz ötüşməz. Çünki ciyərlərimiz təmiz oksigeni alır və karbon qazını buraxır.

Aldığımız havanın tərkibində oksigenin miqdarı az, tozun miqdarı çox olarsa, əlbəttə ki, orqanizmə təsir edəcək. Sabah infeksion xəstəlik, soyuqdəymə, ağciyər xəstəliyi keçirsək, ciyərimiz əvvəlki kimi sağalmaya, müalicə yüz faiz sağalma ilə bitməyə bilər. Çünki insanın sağalmasında ətraf mühitin, ekologiyanın da təsiri var.

**Tozlu havadan necə qoruna bilərik?**

Terapevt bildirir ki, tozlu hava şəraitində evdən çıxarkən maskalardan istifadə etmək lazımdır. Tozduman çökənə qədər və ya külək həmin havanı başqa ərazilərə daşıyana qədər insanların həmin havadan qorunması lazımdır. Bakı küləkli şəhər olduğundan bu cür toz-dumanın qalma şansı çox azdır. Amma Azərbaycan ərazisindən havanın çıxması üçün müəyyən vaxt lazımdır. O müddət ərzində insanların hava ilə ciddi təması az olmalıdır. Çünki toz hissəciklərinin tənəffüs yollarına düşməsi bir sıra xəstəliklərə səbəb ola bilər. Maskalardan istifadə etmək, həmin vaxtda çöldə çox qalmamaq evdə olanda isə qapılar,ı pəncərələri mümkün qədər bağlı saxlamaq tozlu havadan qorunmanı təmin edə bilər".

*Gülər İsmayılova*

# Fransa baş nazir axtarışında...

**Fransada daxili siyasi gərginlik artmaqda davam edir. Prezident Emmanuel Makronun yarıtmaz siyasəti ölkəni dərin böhrana sürükləyib. Xüsusilə, son parlament seçkiləri siyasi böhranı daha da stimullaşdırır. Çünki seçkilərdən sonra parlamentdə təmsilçilik qazanan üç əsas blok bir-birinə güzəştə getmək niyyətində deyil. Konstitusiya tərəfdarları ölkədə davam edən siyasi vəziyyətlə bağlı narahatlıqlarını yerli televiziya kanallarında ifadə ediblər. Bildirilir ki, Milli Assambleyanı buraxaraq, ölkədə qeyri-sabitliyi yaradan elə E.Makron özüdür. Qanunverici orqana seçkilərin nəticəsində de-fakto institusional qeyri-sabitlik yaranıb və Assambleya üç bloka bölünüb. Makron öz institusional missiyasında parlamentin etimadından yararlana bilən və çoxluq tərəfindən qəbul olunan baş nazir təyin etməlidir. Lakin yeni formalaşmış parlament müstəvisində baş nazir seçimi hələ də dalana dirənib.**

## Paris hazırda diplomatiya böhranı da yaşayır

### Makronun yaratdığı siyasi xaos

İndi Makron özünün yaratdığı xaosdan çıxış yolu tapa bilmir və çətinliklərlə üzləşib. Ölkə prezidenti Konstitusiyaya əməl olunmasını, dövlət hakimiyyəti orqanlarının müntəzəm fəaliyyətini, eləcə də dövlətin davamlılığını təmin etməlidir. Bugünkü siyasi vəziyyətdə Makron dövləti idarə edə bilmək üçün alternativ əksəriyyət tapmalıdır. Məsələ Assambleyada hansı çoxluğun meydana çıxa bilməsidir. Çünki bu çoxluqdan asılı olaraq, Fransa hökuməti islahatlar keçirə, büdcəni qəbul edə və ölkəni irəli apara bilər. Yeni çoxluğun sabitliyi məsələsi təmin edildikdə institusional dövlət çevrilişindən danışmağa heç bir əsas olmur.

Lakin 48 gündür Baş nazir axtarışında olan Fransa bütün sahələrdə olduğu kimi xarici siyasət sahəsində də problemlərlə üzləşir. 1993-cü ildən hər il avqustun sonu və ya sentyabrın əvvəlində keçirilən Fransa diplomatik missiyalarının rəhbərləri ilə görüş ləğv edilib. Bu qərarın 2022-ci ildə Yelisey və Quai d'Orsay (Fransa XİN nəzərdə tutulur) arasında başlayan ziddiyyətin narahatlığı daha da artıra biləcəyi qeyd olunur. Sabiq səfirlərin sözlərinə görə, Fransa diplomatiyası üçün vacib olan bu görüş məhdud formatda da keçirilə bilərdi. Görüşdə ən önəmli məqam respublika prezidentinin nitqidir və əsas məqsəd xarici siyasətin əsas istiqamətlərini, prioritetlərini müəyyənləşdirmək, aktual çağırışları müzakirə etməkdir.



Xarici KİV-lər bildirir ki, diplomatik missiyaların rəhbərləri ilə görüş Fransanın xaricdəki və beynəlxalq təşkilatlardakı nümayəndələrinin işini istiqamətləndirən illik oriyentasiyalar vermək imkanı yaradır. Yerlərdə diplomatiya kursunun müəyyənləşdirilməsi, əsas prioritetləri dinləmək üçün hakimiyyət orqanları ilə mütəmadi fikir mübadiləsi aparılması baxımından bu görüşün baş tutması vacibdir. 2022-ci ildə diplomatik korpusun islahatından sonra sarsılmış Fransa XİN-də diplomatların əksəriyyəti görüşün rəsmi ləğvini hakimiyyətin onların işinə maraq göstərməməsinin yeni bir əlaməti kimi görürlər. Sabiq xarici işlər naziri Dominik de Vilpen görüşün ləğvini tarixi səhv adlandırıb, gələcək illərdə bunun müstəqillik, səriştə və yaddaşın itirilməsi kimi

### Prezident diplomatlarla görüşdən niyə qaçır?

ağır təsirləri olacağı barədə xəbərdarlıq edib. Bildirilib ki, artıq karyera diplomatları olmadığı üçün Xarici İşlər Nazirliyi "dostlar" legionuna çevrilib. Fransada və xaricdə E.Makronun dostları səfir təyin olunub. Yəni ölkədə heç bir faydası olmayan hiper-prezidentlik mövcuddur.



Prezidentlər vəzifəyə başlayanda diplomatlara qarşı adətən qərəzli mövqedə olsalar da, zamanla etimad mühiti yaranır, ancaq E.Makronla belə bir mühit yaranmayıb.

Fransız diplomatlar ötən il "Səfirlərin E. Makrona məktubu" adlı nota göndərərək, ölkənin mövqeyinin xaricdə səhv başa düşüldüyünü, ənənəvi balanslaşdırma siyasəti ilə ziddiyyət təşkil etdiyini bildirsələr də, nəticə əldə edilməyib. Beləliklə, Fransa diplomatiyası tənəzzülə uğrayıb. Son vaxtlar təyin olunduqları ölkənin, regionun coğrafi ərazisini mükəmməl mənimsəyən diplomatların mütəmadi olaraq analitik kimi özəl sektora qoşulduqları müşahidə edilib.

Diplomatların üçdəbiri dövlət büdcəsinin cəmi 0,7 faizi həcmində maliyyələşən XİN-dən həmişəlik ayrılmağı düşünür. Avstraliyanın "The Lowy Institute" analitik mərkəzinin məlumatına görə, 249 səfirliyi və konsulluğu, eləcə də beynəlxalq təşkilatlar yanında 16 daimi nümayəndəliyi ilə Fransa diplomatik şəbəkəsi bir ildə iki yer itirərək hazırda dünyada beşinci yerdədir.

Ölkədə qeyri-stabil daxili vəziyyət və beynəlxalq böhranların çoxalması fransız diplomatiyasının getdikcə daha dərin tənəzzülə uğradığını göstərir. Sabiq diplomatlar hesab edirlər ki, Fransa strateji kompasını yeniləməlidir. Onlar Fransanın strateji baxımdan təkləndiyini, dünyada istiqaməti itirdiyini qeyd edirlər. Vurğulanır ki, Fransa prezident administrasiyasının XİN-in və digər aidiyyəti orqanların fundamental məsələlərdə təcili konsensus yaratmaq iqtidarında olmaması təəssüf doğurur.

Xüsusilə, XİN-in dövlət büdcəsindən cəmi 0,7 faiz maliyyələşməsi acınacaqlı göstəricidir. Bu, Makronun ölkə diplomatiyasına laqeyd yanaşmasını ifadə edir. Məhz bütün bunların, yəni ölkədə yaratdığı siyasi böhranın nəticəsidir ki,

### Dövlət büdcəsinin 0,7 faizi həcmində maliyyələşən Fransa XİN

Fransanın solçu "Əyilməz Fransa" partiyası prezident Emmanuel Makronun hakimiyyətdən uzaqlaşdırılması prosedurunu başladıb. Partiyanın parlament fraksiyasının rəhbəri Matilda Pano bir neçə gün öncə bildirmişdi ki, Konstitusiyanın 68-ci maddəsinə uyğun olaraq respublika prezidentinə qarşı impiçment prosedurunun başlanması haqqında qərar layihəsi birgə imzalanma üçün parlament üzvlərinə göndərilib. Bu maddə prezidentin səlahiyyətlərini pozduğu təqdirdə onun vəzifədən kənarlaşdırılması imkanını nəzərdə tutur.

*Nardar BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Yeni teatr mövsümünə az qaldı...

## Teatrsevərlər yeni səhnə əsərləri ilə sevinəcəklər

*Şahanə MÜŞFİQ*

Günəşi, dənizi, qumu, istisi, asudəliyi və məzuniyyətləri ilə daha bir yay fəslini geridə qoyduq. Saçlarımıza sığal çəkən meh təkcə sərin payızın deyil, növbəti iş mövsümünün də gəlişinin xəbərçisidir. Bu da o deməkdir ki, iki aydır məzuniyyətdə olan teatrlarımız da qapılarını öz sevimli tamaşaçılarının üzünə açmağa hazırlaşır. Bəs yeni teatr mövsümünü mədəniyyət ocaqlarımız nə zaman, hansı tamaşalarla açacaq və bu mövsümdə tamaşaçılarını hansı yeniliklərlə sevindirəcəklər?

Akademik Milli Dram Teatrının mətbuat katibi Cavid Zeynallı qəzetimizə açıqlamasında deyib ki, teatr yeni mövsümü sentyabrın 8-də “Qarabağnamə” tamaşası ilə açacaq.

2024-cü ilin sonuna qədər Akademik Milli Dram Teatrında dörd yeni tamaşa hazırlanacaq. Artıq yaradıcılıq işlərinə başlanılan və Uilyam Şekspirin “Maqbet” faciəsinin motivləri əsasında hazırlanacaq “Ledi Maqbet” tamaşası Xalq artisti Bəsti Cəfərovanın yubileyi münasibəti ilə benefist tamaşa olacaq. Yeni səhnə əsərinin quruluşçu rejissoru əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı Samirə Həsənova, bəstəkarı Azər Hacıəsgərli, rəqslərin quruluşçusu Lalə Hacıyeva, rejissor assistenti Ceyran Başarandır.

Yeni mövsümdə premyerası keçiriləcək daha bir səhnə əsəri “Müharibə” olacaq. Mehriban Ələkbərzadə və Nihad Qulamzadənin eyniadlı əsəri əsasında hazırlanacaq tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadə, quruluşçu rəssamı Eldar Nağıyev, bəstəkarı Nigar Süleymanova, rejissor assistenti Könül Kərimovadır.

Akademik Milli Dram Teatrı uzun illərdən sonra yenidən Cəfər Cabbarlının “Aydın” əsərinə müraciət edib. Ərşad Ələkbərovun quruluşunda təqdim olunacaq yeni tamaşanın rəssamı Şəki Dövlət Dram Teatrının baş rəssamı Sahib Əhmədov, musiqi tərtibatçısı Azər Hacıəsgərli, rejissor assistenti Vüqar Məmmədovdur.

Milli Teatrın növbəti yaradıcılıq işi məşhur fransız yazıçı-dramaturqu Rober Tomanın “Səkkiz qadın” pyesi əsasında hazırlanacaq eyniadlı tamaşadır.

Tamaşanın quruluşçu rejissoru Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, bəstəkarı Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə, rəqslərin quruluşçusu Ceyhun Dadaşov, rejissor assistenti Nərmin Həsənovadır.

*****

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı da teatrsevərlərə maraqlı tamaşalar təqdim etməyi planlaşdırır. Teatrın mətbuat katibi Samirə Əşrəfin sözlərinə görə, sentyabrın 21-də Teatrın 97-ci teatr mövsümü açılır. Bu münasibətlə gündüz saat 12:00-da uşaqlar üçün “Qaraca qız”, axşam saat 19:00-da isə Pyer Bomarşenin eyniadlı əsəri əsasında “Fiqaronun toyu” tamaşaları nümayiş olunacaq.

Yeni teatr mövsümündə İlqar Fəhminin “Şahnamə” pyesi əsasında eyniadlı tamaşa hazırlanacaq. Bu mövsümdə tamaşanın oxunuş məşqləri və daha sonra məşqlərinə başlanacaq. Həmçinin “Cırtdan” nağılı əsasında Elşad Rəhimzadənin “Cırtdan” tamaşası hazırlanacaq.

Teatrın mətbuat katibi onu da əlavə etdi ki, ötən mövsümdə hazırlanmağa başlanan “Mən Feyerbax”am monotamaşı festival üçün nəzərdə tutulmuşdu. Lakin tamaşanın 97-ci mövsümdə bitib festivalda iştirak etməsi, sonra isə repertuara salınaraq tamaşaçılara təqdim olunması gözlənilir.

****

Hər il olduğu kimi, 115-ci mövsümündə də Azərbaycan Dövlət Akademik Musiqili Teatr maraqlı layihələrlə teatrsevərlərin görüşünə gələcək. Sözügedən teatrın mətbuat katibi Fəridə Aslanova bildirib ki, yeni mövsüm 18 Sentyabr - Milli Musiqi Günündə dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin “O olmasın, bu olsun” tamaşası ilə açılacaq.

Dörd gün ardıcıl davam edəcək ənənəvi “Üzeyir Hacıbəyli həftəsi” çərçivəsində bəstəkarın “Leyli və Məcnun”, “Ər və arvad”, “Arşın mal alan” tamaşaları nümayiş olunacaq.

Teatrın mətbuat katibi sentyabrın 22-də “Nəğməmə inan”, sentyabrın 28-də “Qızıl toy”, sentyabrın 29-da “Bəxtiyar” tamaşalarının oynanılacağını dedi. Teatrda məşqləri uğurla davam etdirilən “Bir qalanın sirri”, “Əliqulu evlənir”, “Palata”, “Killerdən teleqram” və digər tamaşaların premyeralarına hazırlıq işləri də görülür. Yaradıcı heyət ilboyu istər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda maraqlı layihələrlə çıxış edəcək.

****

Azərbaycan Dövlət Kukla Teatrı özünün yeni - 93-cü mövsümünə dolğun tamaşa planı, həmçinin səfər proqramları, sosial-mədəni aksiyalar ilə başlayır.

Teatrın baş rejissoru, Prezident mükafatçısı Anar Məmmədovun verdiyi məlumata görə, ötən mövsüm olduğu kimi, bu mövsümdə də yaradıcı heyət istər plana uyğun, istərsə də plandan kənar tamaşalar hazırlayacaq: “Kollektiv ötən mövsüm bir neçə festivala qatıldı, eləcə də özü iki festivala evsahibliyi etdi. Bunlardan biri Azərbaycan və Türkiyə kuklaçılarını bir araya gətirən sənət bayramı - III Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalı idi. Bu mövsümdə də ənənəvi festivalda iştirakımız nəzərdə tutulub”.

Əməkdaşlıq zəncirinin daha da genişləndiyini vurğulayan baş rejissor bildirdi ki, qardaş ölkə kuklaçıları ilə birgə türk dünyasında məşhur Molla Nəsrəddin lətifələri əsasında komik, eləcə də ibrətamiz hekayələrdən ibarət bir tamaşa üzərində ilkin işlər başlayıb.

Teatrımızın beynəlxalq əlaqələri fonunda qonşu Gürcüstanla əməkdaşlığa da xüsusi önəm veririk. Məlumat üçün deyək ki, Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında əməkdaşlıq memorandumu imzalanıb və bu sənədə əsasən, gürcü rejissorlarla danışıqlar aparılıb. Klassik nağıl nümunələrimizdən birini bu dəfə gürcü rejissor Nikoloz Sabaşvilinin quruluşunda görəcəyik. Özbəkistanın Qaraqalpaq Dövlət Kukla Teatrı ilə də əməkdaşlıq haqqında müqaviləmiz var. Bu mövsüm qəhrəmanlıq, vətənpərvərlik mövzulu müştərək tamaşa planımızı reallaşdıracağıq”, - deyə Anar Məmmədov bildirdi.

İlin sonunadək teatrda cari repertuar planına uyğun “Bir gün Şamaxı xanlığında”, “Nənəmin aş qazanı” tamaşalarını, eləcə də plandan kənar olaraq, dahi Üzeyir bəy Hacıbəylinin felyetonları, novellaları əsasında böyüklər üçün “Ordan-burdan” tamaşaları hazırlanacaq.

Plandan kənar növbəti tamaşa teatrın rus bölməsi üçün seçilib. Bu, belaruslu rejissor-dramaturq Dmitri Boqoslavskinin “Mən necə səyahətçi oldum” əsəri əsasında hazırlanacaq eyniadlı tamaşadır.

Bu teatrda mövsümü premyera ilə açmaq kimi bir ənənə də var. Teatr təmsilçiləri bu ənənəyə sadiq qalaraq, tamaşaçıların qarşısına sentyabrın 20-də “Lokomotiv və vaqonlar”ın premyerası ilə çıxacaqlar.

****

Bu il YUĞ Dövlət Teatrı üçün çox əlamətdardır. Belə ki, teatr cari mövsümdə özünün yaranmasının 35-ci ilini, teatrın yaradıcısı, Əməkdar İncəsənət Xadimi, yenilikçi rejissor Vaqif İbrahimoğlunun 75 illik yubileyini qeyd edəcək. Hər iki yubileylə bağlı ciddi hazırlıqlar aparan teatr bu mövsümdə üç premyera ilə tamaşaçıların görüşünə gələcək.

Yapon rejissor, ssenarist K.Mitaninin “Gülüş akademiyası” əsəri əsasında rejissor Gümrah Ömərin eyniadlı tamaşası teatrsevərlərə təqdim olunacaq.

Rejissor Tural Mustafayev İsmayıl İmanın “Əziz ata”, Ruslan İsmayılov isə Şəbnəm Xeyrullanın “Arqon” əsərlərini səhnələşdirəcəklər.

Həmçinin yaradıcı heyət Vaqif İbrahimoğlunun yubileyi münasibəti ilə onun zamanında quruluş verdiyi əsərlərdən birini- Çexovun “Albalı bağı” əsərini bərpa edəcək.

****

Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı 143-cü teatr mövsümünü şair-dramaturq Hidayətin “İrəvanda yanan çıraq” mistik tarixi dramı ilə açacaq.

Bu ilin repertuarına daxil edilən Uilyam Şekspirin “Kral Lir” faciəsi, Adilə Nəzərlinin “Axirətdən gələn səs” pyesləri üzərində də hazırlıq işləri gedir. İlin sonunadək bu tamaşaların da premyeraları nəzərdə tutulub.

Şuşa Dövlət Musiqili Dram Teatrı yeni teatr mövsümünü sentyabrın 13-ü Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” əsəri əsasında hazırlanmış tamaşa ilə açacaq.

Növbəti teatr mövsümünü sentyabrın 19-da Əziz Nesinin “Toros canavarı” sosial komediyası ilə açacaq Gəncə Dövlət Milli Dram Teatrı isə bu ilin sonunadək 4 tamaşanın premyerasını nəzərdə tutub. Rey Kunun “Nömrə 13” komediyası, Birgül Gülər Yaşıloğlunun “Qadınlar danışarsa” sosial dramı, Nəcəf bəy Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük” komediyası, Toyğun Orbayın “İnsanoğlunun şərəfinə” tamaşası Teatrın repertuarına daxil ediləcək.

****

Qazax Dövlət Dram Teatrı yeni teatr mövsümünün açılışını sentyabrın 12-də teatrın baş rejissoru, Əməkdar artist Musa Eyyubovun quruluş verdiyi Əli Əmirlinin “Onun iki qabırğası” məişət komediyası ilə açacaq.

Teatrda cari repertuar planına uyğun olaraq Qilyermo Fiqeredonun “EZOP” əsərinin məşqlərinə başlanılıb. Səhnə işi Əməkdar artist Xəzər Gəncəlinin quruluşunda hazırlanır. Tamaşanın premyerası dekabr ayına nəzərdə tutulub. Həmçinin, Əməkdar artist Musa Eyyubov yazıçı-dramaturq Əli Əmirlinin “Şəhid atası” pyesinə səhnə həyatı verəcək. Tamaşa 8 noyabr “Zəfər günü”ndə təqdim olunacaq.

Qazax Dövlət Dram Teatrı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkil etdiyi mono tamaşalar festivalına hazırlaşır. Festival üçün Semuel Bekketin “Sözsüz əməl” pyesi əsasında “Səmirsiz” tamaşası hazırlanıb. Səhnə əsərinə Akademik Rus Dram Teatrından dəvət olunmuş rejissor Abdulla Elşadlı quruluş verib. Bununla yanaşı, Qazax Dövlət Teatrının Türkiyənin Ankara şəhərində oktyabr ayında keçiriləcək beynəlxalq festivalda “LOVE BUTİK” tamaşası ilə iştirakı nəzərdə tutulub.

****

Müstəqil “M.Teatr”ın (“Mənim teatrım”) mətbuat katibi Turan Etibaroğlu deyib ki, teatr yeni mövsümü sentyabrın 20-də məşhur ingilis yazıçısı Etel Lilian Voyniçin eyniadlı romanı əsasında səhnələşdirilmiş “Ovod” tamaşası ilə açacaq.

Sənət ocağı mövsümü gərgin iş qrafiki ilə açıb. Belə ki, hazırda teatrın səhnəsində bir-birindən maraqlı yeni tamaşalar hazırlanır. Yeni tamaşaların adlarını hələ ki, açıqlamaq istəməyən T.Etibaroğlu bildirib ki, kollektiv yaxın aylarda Azərbaycan, Rus, Avropanın ən tanınmış və sevilən, çox oxunan əsərləri ilə teatrsevənlərin qarşısına çıxacaq.



## İki cüdoçumuz dünya reytinqində liderliyi ələ keçirib

Beynəlxalq Cüdo Federasiyası Perunun paytaxtı Limada yeniyetmələr arasında keçirilmiş mundialdan sonra dünya reytinq cədvəlini yeniləyib.

AZƏRTAC qurumun rəsmi saytına istinadən xəbər verir ki, Azərbaycan cüdoçularının mövqeyində dəyişiklik olub.

Nihad Məmişov (55 kiloqram) və Cəsur İbadlı (73 kiloqram) öz çəki dərəcələri üzrə ilk pilləyə yüksəliblər. Onların aktivində müvafiq olaraq 742 və 720 xal var.

Bahadır Feyzullayev 3-cü, Məhəmmədəli Hüsiyev (hər ikisi 50 kiloqram) 4-cü, Mehdi Abbasov 3-cü, Əli Qazıməmmədov (81 kiloqram) 10-cu sırada yer alıblar. Azərbaycan cüdoçuları arasında 90 kiloqram çəki dərəcəsində ən yaxşı göstərici isə Sübhan Axundova məxsusdur - 7-ci yer.

Qeyd edək ki, Azərbaycanın 7 cüdoçu ilə təmsil olunduğu dünya çempionatında N.Məmişov və C.İbadlı qızıl, M.Hüsiyev və M.Abbasov isə bürünc medala yiyələniblər.

## Formula 1 Azərbaycan Qran-Prisi üçün fan-zona və konsert biletləri satışa çıxarılıb

Sentyabrın 13-15-də keçiriləcək Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi üçün fan-zona biletləri və konsert biletləri artıq satışdadır.

AZƏRTAC xəbər verir ki, hər il yenilənən əyləncə zonasındakı bulvar səhnəsində canlı musiqi performansları, müxtəlif zonalarda qurulmuş oyunlar, simulyatorlar, virtual reallıq təcrübələri, rəqslər yarış həftəsinin sonunda fanatlara əsl festival ab-havası bəxş edəcək.

Azarkeşlər Formula 1-in bütün aktivasiyalarını bu il fan-zonada görə biləcək, fan-forumda pilotları və onların komandalarını izləmək fürsəti əldə edəcəklər.



Foto həvəskarları üçün quraşdırılmış iri Formula 1 dekorasiyaları, retro maşınların sərgisi, canlı heykəllər, “selfie” zonalar Formula 1-dən ən yaddaqalan kadrlar çəkmək üçün mükəmməl fürsət təqdim edir.

Əyləncə zonasında böyüklərlə yanaşı, uşaqlar üçün də müxtəlif növ oyun və fəaliyyətlər təklif olunur.

Həmçinin bu gündən etibarən yarış həftəsində baş tutacaq konsert proqramlarına ayrıca biletlərin satışına start verilib. Xatırladaq ki, sentyabrın 13-14-də keçiriləcək möhtəşəm konsertlərdə, musiqi dünyasının ulduzları Uill Smit, Blək Koffi və J Balvin çıxış edəcəklər.

Formula 1 Azərbaycan Qran-Prisinin möhtəşəm atmosferini yaşamaq və həyəcanını birbaşa hiss etmək istəyənlər fan-zona bileti və konsert biletləri əldə edə bilərlər. Biletləri Bakı Şəhər Halqasının rəsmi veb-saytından və mobil tətbiqindən əldə etmək mümkündür.

## Bakı Şəhər Halqası Azərbaycan Qran-Prisinə media nümayəndələrinin akkreditasiyası ilə bağlı seminar keçirib



Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkəti Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2024-ün mediada yüksək səviyyədə işıqlandırılmasını təmin etmək məqsədilə yerli KİV nümayəndələri üçün akkreditasiya ilə bağlı seminar keçirib.

BŞH-dən AZƏRTAC-a verilən məlumata görə, seminar zamanı jurnalist və fotoqraflara akkreditasiya prosesi, media mərkəzinin fəaliyyəti və onların yarış zamanı əməl etməli olduqları qaydalar barədə geniş məlumat verilib.

Tədbirdə media nümayəndələrinə Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2024 barədə ümumi məlumat, yarış təqvimi, komandaların heyətləri və bu möhtəşəm tədbirin əsas məqamları təqdim edilib.

Beynəlxalq Avtomobil Federasiyası (FIA) və Formula One Management (FOM) şirkəti tərəfindən tənzimlənən akkreditasiya prosesi media nümayəndələrinin işinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə yönəlib və yarış zamanı onların təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirlər görülüb. Hər il olduğu kimi bu il də akkreditasiyaya qeydiyyat prosesi elektron portal üzərindən həyata keçirilib.

Seminarda, həmçinin media nümayəndələrinin yarış boyu iş qrafiki, media mərkəzindəki qaydalar və onlara təqdim olunan texniki imkanlar ətraflı şəkildə müzakirə edilib.

Qeyd edək ki, ötənilki Azərbaycan Qran-Prisini 250-dən çox yerli və beynəlxalq media nümayəndəsi işıqlandırıb.

Xatırladaq ki, paytaxt Bakı səkkizinci dəfə sürət yarışına ev sahibliyi edəcək. Bu il Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi sentyabrın 13-15-də baş tutacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4890**
**Sifariş: 2027**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli